# DƏCCALIN AYİNİ TERROR

**HARUN YƏHYA**
**(ADNAN OKTAR)**

**"ARAŞTIRMA"**
**NƏŞRİYYATI**

[www.harunyahya.org](http://www.harunyahya.org) [www.harunyahya.net](http://www.harunyahya.net)

# İÇİNDƏKİLƏR

GİRİŞ

DƏCCAL

QURANDA TƏSVİR EDİLƏN DƏCCAL XARAKTERİ

DƏCCALIN AYİNİ: TERROR

NƏTİCƏ

TƏKAMÜL YALANI

## OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır. Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razısalıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri var. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# MÜƏLLİF VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30 000 şəklin olduğu cəmi 45 000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir. Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Belə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya və Herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın bir çox başqa ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnak, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, su sahili (Tanzaniyada işlədilir), hausa (Afrikada geniş işlədilir), divehi (Maldiv adalarında işlədilir), danimarka və isveç kimi bir çox dillərə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir. Dünyanın dörd bir tərəfində böyük rəğbətlə qarşılanan bu əsərlər bir çox insanın iman gətirməsinə, bir çoxunun da imanının dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikrən məğlub olmuşlar. Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür. Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır. Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və əhəmiyyətli bir təsiri olmayan ümumi təcrübə ilə kifayətlənən kitabları yaymaq isə zəhmət və zaman itkisinə səbəb olur. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq

olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər. Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, dürüstlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

Bu kitabda istifadə edilən ayələr Ə.Musayevin, həmçinin Z.Bünyadov və V.Məmmədəliyevin birgə hazırladığı Qurani-kərim məalından götürülmüşdür.

## GİRİŞ

"Dəccal" kəlməsi bir çoxları üçün heç bir məna kəsb etmir. Çünki insanların əksəriyyəti bu mövzuda çox az məlumata malikdir, hətta bu sözü heç eşitməyiblər. Halbuki dəccal haqqında Peyğəmbərimizin (səv) Qiyamət günün yaxınlaşdığına işarə edən hədislərində çoxlu məlumat verilib. Bu kitabın məqsədi dəccalı hədislərdə bildirilən xüsusiyyətləri ilə təsvir etmək və Peyğəmbərimizin diqqət çəkdiyi bu şeytani gücün yaxından tanınmasına vəsilə olmaqdır.

Dəccal axırzamanda (dünyanın son dövrlərində) ortaya çıxacaq ən böyük neqativ gücün adıdır. Hədislərdə, ümumiyyətlə, bir şəxs kimi təsvir edilir. Lakin bu, bir şəxs olmaqla yanaşı, şiddətə, vəhşiliyə

meyilli və şeytani xüsusiyyətlərə malik, həmçinin insanlara zülm edən ideologiyanın da adı ola bilər. Kitabın növbəti səhifələrində dəccaliyyətin bu yönündən bəhs ediləcək və bunun bəşəriyyətə təsir edən azğın fikir cərəyanı olduğu göstəriləcəkdir. Bu fikir cərəyanı sanki sehr kimi kütlərə təsir edir. Cəfəng və yanlış olmasına baxmayaraq, çoxlu tərəfdarları var və öz içində belə müxtəlif məzhəblər mövcuddur.

Bu məqamlara xüsusi diqqət çəkmək lazımdır: bu cərəyan öz yanlış ideologiyasını dünyaya hakim etmək üçün insanları qorxuya salaraq qarışıqlıq, xaos və anarxiya meydana gətirir. Hədəfinə çatmaq üçün həmin cərəyanın ən çox istifadə etdiyi üsullardan biri şiddət və terror aktlarıdır. Başqa sözlə desək, terror dəccali sistemin önəmli vasitəsidir. Dəccali sistemin tərəfdarları bu vasitədən sanki bir ayin kimi istifadə edir.

Bu gün hələ də dünyanın müxtəlif yerlərində davam edən müharibə, qarşıdurma, terror aktları, qətliam və cinayətlər axırzamanın ən əhəmiyyətli şeytani gücü olan dəccalın əsəridir. Bu sistemin əsas hədəfi insanları iman, gözəl əxlaq, sevgi və mərhəmət kimi bütün insani məziyyətlərdən uzaqlaşdırıb onları sevgisiz, aqressiv və vəhşi heyvana döndərmək, bu şəkildə dünyanı qanlı arenaya çevirməkdir. Ancaq bu planın heç bir zaman qalib gəlməyəcəyini və dəccali sistemin mütləq yox olacağını qəti unutmaq olmaz. Meydana gətirdiyi xaos və fitnənin ölçüsü nə qədər böyük olsa da, bu fikir cərəyanı digər haqq olmayan fikir sistemləri kimi Allahın qanunu gərəyi yox olmağa məhkumdur. Bu məğlubiyyət Allahın izni ilə Allaha ixlasla yönələn, eləcə də yer üzündə iman və gözəl əxlaqın yayılması üçün cəhd göstərənlərin apardığı fikri mübarizə ilə baş verəcək. Bu, Allahın iman gətirənlərə vədidir. Bir Quran ayəsində haqqın ortaya çıxması ilə batili yox edəcəyi belə xəbər verilir:

**De: "Haqq gəldi, batil puç olub getdi. Həqiqətən də, batil puçluğa məhkumdur!" (İsra surəsi, 81)**

## DƏCCAL

"Dəccal" sözü ərəbcə "yalançı", "hiyləgər", "beyinlərdə haqq ilə batili qarışdıran", "bir şeyi bəzəyib gerçək üzünü gizlədən", "hər yeri gəzən pis və uğursuz adam" kimi mənalar ifadə edir. Peyğəmbərimizin (səv) axırzamandan bəhs edən hədislərində dəccal qiyamətin ən önəmli əlamətlərindən biri kimi qeyd edilir.

Dünyanın hazırki dövrü isə Peyğəmbərimizin hədislərində təsvir edilən axırzamana çox bənzəyir. Hədislərdə bu dövrdə fitnə və anarxiyanın yayılacağı, dünyada hüzurun qalmayacağı, insanların aclıq, kasıblıq və qıtlıq kimi sıxıntılarla mübarizə aparacağı bildirilmişdir (ətraflı baxın: Qiyamət əlamətləri, Harun Yəhya, 2001). Bu dövrdə qarışıqlığın yayılmasına səbəb olan, insanları əxlaqsızlığa sövq edən, kütlələri inkar və üsyana yönləndirən, həmçinin terror və şiddətin bünövrəsi dəccaldır. Dəccal əxlaqsızlığı yayarkən pisi yaxşı göstərən, yaxşını da pis göstərən metodlardan istifadə edir. Bunu xəbər verən hədislərdən biri belədir:

***Dəccal çıxar. Yanında su və od olar. İnsanların su zənn etdiyi yandırıcı oddur. Od kimi gördükləri isə soyuq və dadlı sudur.*** [1]

Peyğəmbərimiz hədislərində Qiyamət qopmamışdan əvvəl dəccalın mütləq çıxacağı ilə yanaşı, onun hansı mühitdə çıxacağını da bildirmişdir. Dəccal din əxlaqının yaşanmadığı, Allahın açıq inkar edildiyi, həmçinin müharibə, cinayət, əxlaqsızlıq, qarışıqlıq və terrorun gündəlik həyatın bir parçasına çevrildiyi dövrdə çıxacaq. Tarix boyu dünyada anarxiya və qarışıqlığın yaşandığı dövrlər olmuşdur, lakin dəccalın səbəb olduğu qarışıqlıq və xaos mühiti tarixin heç bir dövründə görülməyib.

Peyğəmbərimiz bir hədisində bu mövzuya belə diqqət çəkmişdir:

***Allah hz.Adəmi yaratdığı dövrdən bu yana dəccalın fitnəsindən daha böyük fitnə olmamışdır .*** [2]

## DƏCCALİYYƏTİN DİNİ DARVİNİZM

Bir çox hədislərdə müxtəlif bənzətmələrlə Dəccal təsvir edilir. Bu xüsusiyyətlərdən görünür ki, insanları inkara sürükləyən, din əxlaqından uzaqlaşdıran, fitnə çıxaran hər cür ideoloji və düşüncə sistemi dəccali təmsil edir.

Bu gün yer üzündə dinə qarşı olan ən böyük fitnələrdən biri materializm və bundan törəyən müxtəlif cərəyanlardır. Bütün bu cərəyanların saxta elmi əsası və əsas dayaq nöqtəsi isə darvinizmdir. Darvinizm ortaya atıldığı tarixdən etibarən materialist və dinə zidd ideoloji cərəyanların dayağına çevrilmiş, bu ideologiyaları müdafiə edənlər tərəfindən din kimi dəstəklənmişdir. Darvinizmin axırzamanda dəccalın dini olacağına böyük İslam alimi Bədiüzzaman Səid Nursi belə diqqət çəkmişdir:

***Təbiətçilik və materializm fəlsəfəsindən çıxan nəmrudanə bir cərəyan axırzamanda fəlsəfə vasitəsilə getdikcə yayılaraq qüvvətlənəcək və ilahlıq iddia edəcək dərəcəyə çatacaq.*** [3]

Bədiüzzamanın "təbiətçilik və materializm fəlsəfəsindən çıxan nəmrudanə cərəyan" kimi təsvir etdiyi darvinizm təbiətə müstəqil güc verən, bütün canlıların kor təsadüflərin əsəri olduğunu iddia edən və insanları Allaha inanmaqdan uzaqlaşdırmağa çalışan nəzəriyyədir. Peyğəmbərimizin hədisləri toplusu olan "Kutubi-sittə müxtəsər tərcüməsi və şərhi" adlı əsərdə bu barədə belə deyilir:

***Dəccalın yol açdığı axırzaman fitnəsinin ən bariz və mühüm vəsfi dinə qarşı olmasıdır. Axırzamanda ortaya çıxan bir qisim humanist fikir və dəyərlər dinin yerini tutmağa çalışacaq. Bu yeni din insanın üzərindəki hər cür ilahi hakimiyyəti qaldırmaq üçün inkarı özünə əsas götürəcək... Əsas ilahı maddə və insan olan dindənkənar bir dindir.*** [4]

Bu gün humanist fikirlər, həqiqətən də, din kimliyinə bürünmüşdür. Humanizm Allahın inkar edildiyi və insanın səcdə ediləcək müqəddəs varlıq kimi göstərildiyi ateist dindir. Humanist qurum və təşkilatların nəşrlərinə baxanda isə düşüncələrinin əsasını darvinizmin təşkil etdiyi görünür. (Əlavə məlumat üçün bax: Harun Yəhya, Qlobal masonluq, İstanbul, 2002)

Canlıların cansız maddələrdən əmələ gəldiyi və təkmilləşərək inkişaf etdiyi fikrini müdafiə edən darvinizmin ən önəmli mexanizmi təsadüfdür. Bu aldadıcı nəzəriyyəyə görə, bütün canlı növləri təsadüfən ortaya çıxan hüceyrədən, yəni ortaq bir atadan əmələ gəlmiş və tədricən yenə təsadüflər nəticəsində kiçik dəyişikliklərlə bir-birindən fərqliləşmişlər. Heç bir elmi əsası olmayan və tamamilə xəyallara əsaslanan bu nəzəriyyə Darvin dövrünün ibtidai elmi və sosioloji şərtləri daxilində bir çoxları tərəfindən qəbul edilmişdir. Lakin elmin və texnologiyanın inkişafı ilə nəzəriyyənin böyük yalandan ibarət olduğu anlaşılmışdır. Buna baxmayaraq, aşağıda bəhs edəcəyimiz kimi, bəzi qruplar hələ də bu nəzəriyyəyə bağlı qalaraq həmin ağılsız fikirlərdən əl çəkmirlər.

Darvinizm ortaya atıldığı tarixdən etibarən materialist və dinsiz ideoloji cərəyanların dayağına çevrilmiş, bu ideologiyaların tərəfdarları tərəfindən dəstəklənmişdir.

Bu batil dinə görə, yer üzündəki canlılar yaradılmamışdır, özbaşına var olmuşdur. Bu cəfəng anlayışı mənimsəyənlərə canlıların ortaya ilk dəfə necə çıxdığını soruşanda isə kor təsadüflərin əsəri olduğunu deyirlər. Halbuki təsadüf tamamilə ağılsız və məqsədsiz gücdür. Allah isə hər şeyi plan, ağıl, hikmət və nizamla yaradıb. İnsan bir əşya ilə qarşılaşanda bunu mütləq birinin düzəltdiyini bilir. Həmin əşyanın ağıllı və şüurlu varlıq tərəfindən yaradıldığını anlayır. Bundan başqa, bunu anlamaq üçün uzun düşünməyə və araşdırmağa da ehtiyac yoxdur. Bu baxan kimi başa düşülür. Məsələn, adam bir otağa girəndə orada gördüyü divan, stol, saat, televizor və s. kimi şeyləri bir nəfərin gətirib qoyduğunu və otağa səliqəli şəkildə düzdüyünü bilir. Heç kim həmin əşyaların o otaqda təsadüfən əmələ gəldiyini, yaxud başlı-başına otağa gəlib elə düzüldüyünü düşünməz. Belə bir şeyi deyən olsa da, o adamın ağlına şübhə ilə yanaşarlar.

Darvinizm kimi mənasız fikrə inanan adamlar isə alma, portağal, çiyələk, üzüm, yemiş, qarpız, ərik, şaftalı və s. kimi bitkilərin, həmçinin ceyran, pələng, dovşan, sincab, zebr və zürafə kimi heyvanların, hətta mühəndislərin, professorların, akademiklərin, sənətçilərin, yəni bütün insanların kor təsadüflər nəticəsində ortaya çıxdığını iddia edirlər. Başqa sözlə desək, həmin adam gördüyü hər varlığın təsadüflərin əsəri olduğunu zənn edir. Belə vəziyyətdə təsadüf artıq həmin şəxsin ilahıdır. Lakin diqqət edildikdə görünür ki, bu

saxta ilah düşüncə qabiliyyəti olmayan dünyanın ən ağılsız ilahıdır. Çünki bu ilah həm özünün nə olduğunun fərqində deyil, həm də nə ortaya çıxardığını və nə etdiyini bilmir.

Peyğəmbərimiz dəccal ilə əlaqədar bir hədisində: "Xəbəriniz olsun ki, o kordur"[5], – deyə buyurmaqla dəccalın gözünün kor olduğunu xəbər verir. Bəzi İslam alimləri tərəfindən bu hədis belə açıqlanır ki, dəccalın qəlb gözü kordur. Bu açıqlama yuxarıda yazılanlara əsasən daha dəqiq anlaşılır. Kor təsadüfü ilahlaşdıran dinə inanan adamların həm qəlb gözü, həm də ağıl gözü kordur. Bu adamlara Allahın bütün kainatı üstün ağıl və nizamla yaratdığını deyəndə o dəqiqə etiraz edirlər. Lakin hər şeyin kor təsadüflərin əsəri olduğu deyiləndə bunu çox məntiqli görürlər. Ağıllı və şüurlu yaradılışın əvəzinə qarışıqlıq və xaosun içində ağlı və şüuru olmayan təsadüflərin hər şeyi var etdiyini iddia edirlər. Bu yöndə düşündükdə darvinizm dünya tarixinin ən dəhşətli və ağlasığmaz batil dinidir. Maraqlıdır ki, bu yanlış və mənasız dini bir çox təhsilli şəxslər də mənimsəyiblər. Bəzi professor, dövlət adamları, siyasətçi, müəllim və doktorlar belə bu ağılsızlığa inanırlar. Bu da dəccalın fikri sisteminin insanlara sehr kimi təsir etdiyini göstərir.

Bəs bəzi adamları belə ağılsız iddianı mənimsəməyə və hətta bunu həvəslə müdafiə etməyə vadar edən nədir?

Bu məqamda axırzamanda dəccalın fikir sisteminin yayılması üçün davamlı təbliğatın aparıldığını görürük. İnsanlara şüurlarının açılmağa başladığı ilk gündən etibarən sürəkli təlqin edilir və insanlar mərhələli şəkildə bu azğın dinə daxil edilirlər. İnsanlar uşaqlıq çağlarından etibarən tədricən bu təlqini alırlar. Hər mərhələdə insan dəccalın qaranlıq dünyasına doğru aparılır. Bu təlqindən qorunmağın ən önəmli yolu vicdanın səsini dinləməkdir. Çünki vicdan adamı Allahın izni ilə hər zaman ən doğru yola çatdıran rəhbərdir. Elmi yöndən tamamilə çökən darvinizm dövrümüzdə ancaq ideoloji cəhətdən müdafiə edilir. Eyni zamanda insan vicdanını dinləməklə bu yanlışlığı asanlıqla görə bilər.

Bu təhlükəyə qarşı təmkinli olmaq və bunun mexanizminin necə işlədiyini anlamaq üçün uşaqlıq dövründən etibarən keçirilən mərhələlərdən bəhs etmək yerinə düşər.

### 1-ci mərhələ

### Həyatın təsadüflərin əsəri olduğundan bəhs edilir

Uşaqlar həyatı yetkin insanlardan fərqli dəyərləndirirlər. Onlar davamlı suallar verərək ətraflarında baş verənlərin səbəbini soruşurlar. Necə yarandıqları və danışdıqları, təbiətdəki digər canlıların və bitkilərin necə meydana gəldiyi, onları kimin yaratdığı, günəşin və ayın necə doğub-batdığı kimi amilləri düşünür, bunların cavabını axtarırlar. İnsanlar fərqli izahlar versələr də, bu sualların bircə doğru cavabı var.

Doğru cavab budur: həm özünü, həm də ətrafında gördüyü hər şeyi yaradan Allahdır və insan Allah qarşısında məsuliyyət daşıyır. Lakin insanların bir qismi uşaqların bu suallarına doğru cavab vermirlər. Hər şeyi Allahın yaratdığını desələr də, Allahın hər şeyin tək hakimi və sahibi olduğunu, eləcə də bütün hadisələrin Onun diləməsi ilə baş verdiyini izah etmirlər. Bəziləri isə uşaqlara yanlış məlumat verərək bütün kainatın ağılsız və şüursuz təsadüflərin əsəri olduğunu deyirlər. Çünki onlar da ətraflarındakı insanlardan eyni cavabları eşidib, həmçinin illərlə də belə təhsil alıblar. Məktəb, qəzet, televiziya verilişlərində həmişə Allahın varlığını inkar edən təlqinlərlə qarşılaşıblar.

Bundan başqa, bu təlqinlər insanlara elə təsir edib ki, möhtəşəm yaradılışlar onlara adi gəlir və bunlar haqqında düşünmürlər. Əslində, bu vəziyyətin özü də bir möcüzədir. Bütün dəlillərə və şahid olduqları bir çox möcüzələrə baxmayaraq, insanların inkar etmələri Quranda bildirilən möcüzələrdəndir. Allah bu vəziyyəti bir ayədə belə bildirir:

**Əgər Biz onlara mələkləri göndərsəydik, ölülər də onlarla danışsaydı və hər şeyi onların qarşısına toplasaydıq, Allah istəməyincə, onlar iman gətirməzdilər. Lakin onların çoxu bilmir.** (Ənam surəsi, 111)

Belə insanlar da uşaqlarına özlərinin inandığı dəccal dinini öyrədirlər. Beləliklə, insanların böyük qismi uşaq yaşlarından başlayaraq Allahın varlığını və yaratma sənətini düşünmədən hər şeyin təsadüflərdən ibarət olduğuna inanaraq böyüyürlər. Bəzi ailələr isə uşaqlara bu barədə heç nə danışmırlar və onlar böyüdükdə televiziya proqramlarında, filmlərdə və ya qəzetlərdə qarşılaşdığı ateist təlqinlərlə baş-başa qalırlar. Belə vəziyyətlərdə çox vaxt uşaqlar bu təlqinlərə qapılırlar.

**2-ci mərhələ**

**Həyatın şiddətə əsaslanan mübarizə yeri olduğu yalanı öyrədilir**

Həyatın təsadüflərin əsəri olduğunu düşünən insan üçün maddə tək mütləq varlıqdır. Bu cür cəmiyyətlərdə uşaqlara öyrədilən şeylərdən biri də budur ki, insan güclü və eqoist olduğu müddətcə ayaqda qalacaq.

İlk öncə ailədə başlayan bu təlqin uşağın məktəbə getməsi ilə daha da güclənir. Uşağın ailədən və ətrafdan öyrəndikləri məktəbdə "elm" adı altında təbliğ edilir və bu, "insanların atası heyvandır, beləliklə, heyvanlar arasındakı münasibət insanlara da aiddir" düşüncəsi ilə dəstəklənir. Bu minvalla uşaq fərdlər və topluluqlar arasında daim mübarizə olduğunu, zəif olanların ortadan qalxacağını və buna uyğun yaşamalı olduğunu öyrənməyə başlayır. Bu təlimə əsasən, bir uşağın həyatda ən çox ehtiyac duyduğu şey bu mübarizədə lazım gələrsə, güc, şiddət və hiylədən istifadə edərək ayaqda qalmağı bacarmasıdır.

Bu təlqin məktəblə məhdudlaşmır. Uşaq qulaq asdığı mahnılarda, izlədiyi filmlərdə, reklamlarda, hətta oynadığı kompüter oyunlarında belə sosial darvinizm təlqinini almağa davam edir. Bunun nəticəsində də insanlarla münasibətlərini maddə anlayışının üzərinə qurur. Bu, insan həyatının hər anına amansızlığın, eqoistliyin və vəfasızlığın hakim olması deməkdir. Bunun nəticəsi olaraq uşaq əxlaqi dəyərlərdən uzaq qaranlıq dünyaya yuvarlanır.

Halbuki Quran əxlaqı insanlara bunun tam ziddi olan həyat təqdim edir. Quranda insanlar sülh və dostluğa dəvət edilir. Quran əxlaqının yaşandığı topluluqlarda sevgi, mərhəmət, hüzur və fədakarlıq hakimdir. Allahın insanlara əmr etdiyi gözəl əxlaq belə bildirilir:

**Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər. (və deyərlər): "Biz sizi yalnız Allahın Üzü xətrinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləmirik! Əslində, biz, Rəbbimizdən gələ bilən çox kəskin və ağır bir gündən ehtiyat edirik!" Bunun əvəzində Allah da onları həmin günün şərindən qoruyar və onlara gözəllik və sevinc nəsib edər. (İnsan surəsi, 8-11)**

**3-cü mərhələ**

**Heç kim qarşısında məsuliyyət daşımadığı öyrədilir**

Soruşduğu hər suala materialist və darvinist düşüncə çərçivəsində cavab alan uşağın ətrafındakı insanlar kimi olmaqdan başqa yolu qalmır. Artıq o da bunu açıq şəkildə ifadə etməsə də, özünü və qarşısındakı adamı təkmilləşmiş heyvan növü kimi görməyə başlayır.

Lakin təlimin əhəmiyyətli bir mərhələsi də var. Bu mərhələdə uşaq özündən başqa heç kim qarşısında məsuliyyət daşımadığını öyrənir. Ona təlqin edilən bu batil inanca görə, əgər əzəldən bəri yalnız maddə varsa, bu maddə həmişə mövcud olacaqsa, eləcə də həyat başdan sona təsadüflərdən ibarətdirsə və ölüm tamamilə yox olmaqdırsa, onda insan üçün ancaq maddi mənfəətləri əhəmiyyət daşıyır. Artıq maddədən meydana gələn bu dünyada mənəvi dəyərlərin mənası qalmır. Belə vəziyyətdə insan hansı yolla olsa da, öz həvəs və istəklərinin təmin edilməsi üçün çalışır. Quranın "***Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz Bizə qaytarılmayacaqsınız***?" (Muminun surəsi, 115) ayəsi bu cahil insanların yanlış düşüncəsini bizə göstərir.

Həqiqətdə isə başıboş yaşayıb ölümlə birlikdə yox olacağını düşünən insanlar böyük səhvə yol verirlər. İnsan hər şeyi yoxdan yaradan Rəbbimizə qarşı məsuliyyət daşıyır. Allah insanı müəyyən qədərlə (tale)

yaradıb. Onun keçmişini, indiki durumunu və gələcəyini bilir, eləcə də öldükdən sonra sorğu-sual edib etdiklərinin hamısının qarşılığını verəcək. Allah insanı heyvanlardan fərqli olaraq ruh, ağıl, iradə və mühakimə bacarığı ilə yaratmışdır. Yəni adam daxilən fərqli şeylərə meyilli olsa da, bu xüsusiyyətləri ilə pisliyi əngəlləmək gücünə sahib olaraq yaradılmışdır.

Bunun fərqində olmayan və ya bu həqiqəti görməzlikdən gələn bir adamın cəmiyyətdə təhlükə yaradacağı göz qabağındadır. Məsələn, bir hadisəyə əsəbiləşən adam qarşısındakı adama heç düşünmədən zərər verə və ona qarşı amansız davrana bilər. Qarşı tərəfin müdafiəsiz olması onu heç maraqlandırmaz. Əhəmiyyətli olan əsəbini bir yolla sakitləşdirməkdir. Lakin Allahın verdiyi ruhu daşıdığını bilən ağıllı və vicdanlı adam bütün hallarda əsəbinə hakim olur. Mühakimə və vicdanı hər zaman açıqdır, Allaha hesab verə bilməyəcəyi ən kiçik hərəkəti belə etməz. Günah işlədikdə buna görə tövbə edər və xətasını düzəldər.

Allah özünü başıboş zənn edənlərə yaradılışlarını və ölümdən sonra təkrar diriləcəklərini Quranda belə xatırladır:

**Bəlkə insan özbaşına qoyulacağını güman edir?**
**Məgər o, (kişi) toxumundan axıdılan bir damla nütfə deyildimi?**
**Sonra laxtalanmış qan oldu. Allah (onu) yaradıb kamil bir görkəmə saldı.**
**Ondan da bir cüt kişi və qadın yaratdı.**
**Məgər O, ölüləri diriltməyə qadir deyil? (Qiyamət surəsi, 36-40)**

Başqa bir ayədə isə insanlara həm pisliyin, həm də bundan qorunmağın ilham edildiyi bildirilmişdir (Şəms surəsi, 7-10). Beləliklə, insanların əxlaqi pozuntularının və cinayət əməllərinin əsas səbəbi Allaha iman gətirməmələri, eləcə də etdikləri əməllərə görə Ona hesab verməyəcəklərini güman etmələridir. Halbuki insanın yaradılış məqsədi var. "*Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım*" (Zariyat surəsi, 56) ayəsi ilə bu məsuliyyətin Allaha ibadət olduğu bildirilmişdir. İnsan dünya həyatında imtahandan keçir və vəzifəsini yerinə yetirib-yetirmədiyinə görə sorğu-sual ediləcək. Bir ayədə belə buyurulur:

**Halbuki onlara, dini məhz Allaha məxsus edərək, həniflər kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu. Doğru din də elə budur! (Beyyinə surəsi, 5)**

Doğru din Allahın dinidir. Lakin bir çoxları kitabın əvvəlindən bəri bəhs etdiyimiz təlqinlər nəticəsində bundan uzaqlaşır. Əvvəlki səhifələrdə mərhələlərini təsvir etdiyimiz sosial darvinist təlimdən keçən adamın önündə çoxlu seçim imkanı qalmır. Həyata və insanlığa baxışı tamamilə materialist-darvinist düşüncə yönündə formalaşır. Artıq o da yalnız özünü və mənfəətlərini qorumaq üçün mübarizə aparacaq, çox vaxt zülm və hiyləni tək yol kimi görəcək və dinsizliyin təsiri ilə bir günahdan başqa günaha tərəf qaçacaq. Çünki onun qarşısını alan və ya mane olan heç bir səbəb olmayacaq. Müdafiəsiz insanlara hücum edən, məzlumları əzib haqlarını tapdalayan, şiddətdən zövq alan, qan və göz yaşını əyləncəyə çevirən, qısası, bütün insani xüsusiyyətlərdən uzaqlaşan insanların sayı gün keçdikcə artır. Bunun ən əhəmiyyətli səbəbi insanlara dəccal dininin bu ürküdücü təlqinlərinin həyatın ayrılmaz həqiqəti kimi öyrədilməsidir.

## DƏCCAL DİNİNİN MƏZHƏBLƏRİ

Hədislərdə dəccalın fitnəsinin bütün dünyanı bürüyəcəyi xəbər verilir. Bunun bir işarəsi də odur ki, hər dindən, hər inancdan və hər millətdən bu sistemə tabe olanlar olacaq. Bu fitnə çox böyük və geniş yayıldığına görə bir çox insanlar bilərək və ya bilməyərək bu hiyləyə düşəcəklər. Bu, insanlar fərqində olmasalar belə, dəccalın müdafiə etdiyi həyat tərzinə tabe olmaq mənasına gəlir. Başqa sözlə, hansı dünyagörüşünə sahib olsalar da, anarxiya meydana gətirən, şiddət tətbiq edən, insanların asayişini pozan şəxslərin hamısı dəccalın dininə tabe olublar.

Bununla yanaşı, bu dinin daxilində müxtəlif məzhəblər var. Geridə qoyduğumuz əsrə nəzər salsaq, darvinizmdən qaynaqlanan iki əhəmiyyətli ideologiyanın insanlıq üzərində mənfi təsirlərini görərik: kommunizm və faşizm.

Bu iki ideologiya dəccal dininin iki ana məzhəbi kimi qəbul edilə bilər. Hər ikisinin qurucuları və öndə gedən liderləri dövrümüzdə dəccali sistemin əsası olan darvinizmə bağlıdırlar. Hər iki cərəyan darvinizmin təsiri altındadır. Bəşəriyyətə saysız-hesabsız fəlakətlər gətirən, dünyanı sanki qanlı arenaya çevirən bu məzhəblər yaxından araşdırıldıqda ortaya maraqlı mənzərə çıxır: nə qədər bir-birinə zidd kimi görünsələr də, hər iki məzhəbin ortaq nöqtəsi var və hər ikisi eyni qaynaqdan, yəni darvinizmdən bəslənir. (Ətraflı məlumat üçün: Darvinizmin dünyaya gətirdiyi bəlalar, H.Yəhya, Vural Nəşriyyatı, 2000). Bu məzhəblər arasındakı ortaq məqamlarını və darvinizmin təməl fikirlərini qısaca belə sadalaya bilərik:

### Darvinizm

Yaradıcının var olduğunu inkar edir. Əsas hədəfi dinsiz cəmiyyətlər formalaşdırmaqdır. Darvinizm təsadüfləri ilahlaşdıran dinə çevrilmişdir.

Həyatda qalmaq uğrunda amansız mübarizəni dəstəkləyir. Bu iddiaya görə, canlılar arasındakı mübarizə insanlar üçün də əsaslı olmalıdır. Hər kəsin bir-birini rəqib kimi gördüyü mühitdə qəzəb və nifrət də adi hislər kimi qəbul edilir.

Həyat mübarizəsində tolerantlığa, mərhəmətə və dialoqa yer yoxdur. Əgər yalnız güclü olanlar ayaqda qala biləcəksə, belə vəziyyətdə bu insani məziyyətlər ən son ehtiyac duyulan şeylər ola bilər.

Darvinizm böyük yalandan ibarət bir ideologiyadır. Darvinizmin önə sürdüyü bütün iddiaları dövrümüzdə müasir elm təkzib edir.

### Kommunizm

Dini cəmiyyətləri uyuşduran tiryək kimi dəyərləndirir. Hakim olduğu bütün cəmiyyətlərdə, ilk növbədə, inanclılara qarşı mübarizə aparmışdır.

Leninin "inkişaf zidlərin mübarizəsidir" sözü ilə dilə gətirdiyi kimi, irəliləyişin ancaq qarşıdurma ilə mümkün olacağını güman edir. Bu ideologiyaya görə, irəliləmə və inkişaf qan tökmədən gerçəkləşə bilməz.

Hərbi əməliyyatlar və inqilablar kommunizmin ayrılmaz hissəsidir. Bunların təməlində isə cəmiyyətlərdəki digər siniflərə qarşı qəzəb və amansız intiqam duyğusu dayanır.

Kommunizm hər cür fərqliliyə və müxalifətə qarşıdır. Fərqliliyin bir mənası var, o da mübarizə ünsürü olmasıdır. Kommunist rejimlərdə insanlar da daxil olmaqla hər şey vahid tipdir. Bu vahidliyi pozmağa çalışan hər cür ünsür rejim düşməni qəbul edilir və ona qarşı ən sərt addımlar atılır. Belə mühitdə tolerantlığın yaşanması və dialoq mühitinin qurulması mümkün deyil.

Kommunizmin tərəfdarlarının sayını artırmaq üçün önə sürdüyü bərabərlik, sosial ədalət və azadlıq kimi anlayışların aldadıcı olduğu praktiki tətbiqlərində açıq şəkildə görünür. Despot və totalitar rejim olan kommunizm üçün bu anlayışlar saxta təbliğat ünsürü olmaqdan o yana keçməmişdir.

### Faşizm

Faşizm din əxlaqına tamamilə ziddir. Faşizmin özünün müqəddəs saydığı dəyərlər uğrunda minlərlə məsum insanı qətlə yetirmiş, üstəlik bunu yaxşı cəhət kimi görmüşdür. Buna görə də müharibə və qarşıdurma faşizm üçün ən vacib vasitədir.

Fərqli irqlərə qarşı duyulan qəzəb və nifrət faşizmin ən əsas təməl nöqtələrindən biridir. Bu irqçi iddia saysız-hesabsız müharibə və münaqişələrin, qətliam və etnik təmizliyin çıxış nöqtəsidir.

Faşizmə qatı nizam-intizam hakimdir. Zidd olan hər düşüncə kökdən yox edilir. Hitlerin iqtidarı dövründə "alman olmayan" fikirləri ehtiva edən minlərlə kitabın yandırılması bu zehniyyətin bir nümunəsidir.

Faşizm insanları əldə etmək üçün onlara öz irqlərinin digər bütün irqlərdən üstün olduğunu təlqin edir. Əsil hədəfi irqi üstünlüyə əsaslanan sistem qura bilməkdir. Ancaq hər irqin yalnız özünün üstün olduğunu iddia etdiyi mühitdə münaqişə və qarşıdurmaların sona çatmayacağı hamıya məlumdur. Hitler və Mussolini kimi faşist diktatorların öz xalqlarını sürüklədiyi bəlalar faşizmin müdafiə etdiyi fikirlərin böyük yalandan başqa bir şey olmadığının əhəmiyyətli sübutlarındandır.

Yuxarıda saydığımız xüsusiyyətlər bu ideologiyalar haqqında ümumi məlumat vermək üçün sadalanan bir neçə maddədir. Bu ideologiyaların gündəlik həyatdakı tətbiqatlarına baxıldıqda şiddət və vəhşilik açıqca görünür. Maraqlıdır ki, dəccaliyyət və ona bağlı olan ideologiyalar cəmiyyətlərə nə qədər zərər versə də, geniş kütlələr tərəfindən mənimsənmişdir. Buna görə də dəccal sisteminin cəmiyyətləri necə təsiri altına aldığının üzərində dayanmaq lazımdır. Bu təsbitin yayılması həmin sistemə qarşı aparılacaq mübarizənin ilk addımı olacaq. Çünki insanlar bir anda eqoist, aqressiv, amansız və nifrət dolu fərdlər halına gəlmirlər. Əvvəl də qeyd etdiyimiz kimi, bu, insanların dəccal sisteminə tədricən öyrəşdirilməsi ilə baş verir. Bu proses insanların ətraflarını qavramağa başlamaları ilə birlikdə dövrəyə girir və ömür boyu aldıqları təlqinlərlə davam edir. Bu təlqinlərin əsas məqsədi isə insanların Allaha imandan uzaqlaşdırılmasıdır.

Bəhs etdiyimiz bu ana məzhəblərin fərqli qrupları və fərqli tətbiqçiləri var. Kitabın növbəti hissələrində dəccaliyyətin terrorla əlaqəsindən danışarkən bunlardan müxtəlif nümunələr veriləcək. Ancaq daha əvvəl Quranda dəccaliyyətdən necə bəhs edildiyini araşdırmaq faydalı olar.

## QURANDA TƏSVİR EDİLƏN DƏCCAL XÜSUSİYYƏTİ

Peyğəmbərimizin (səv) dəccalı təsvir edən hədislərdəki məlumatlar Quranda bildirilən günahkar xüsusiyyəti ilə böyük bənzərlik təşkil edir. Quranda bildirilən yalançılıq, ədalətsizlik, zalımlıq, insanları dindən uzaqlaşdırmaq kimi pis əxlaqi xüsusiyyətlər darvinizmin bəslədiyi ideologiyaların əsasını təşkil edir.

Allahın Quranda günahkar kimi diqqət çəkdiyi şəxslər yer üzündə anarxiya və terror çıxaranlardır. Həmin insanlar Allahın hədlərini tanımayan, din əxlaqını yaşamayan, günah və cinayətə meyilli adamlardır**. "Şübhəsiz ki, günahkarlar azğınlıq və əzab-əziyyət içindədirlər" (Qəmər surəsi, 47)** ayəsində bildirildiyi kimi, belə insanlar azğınlıq içindədirlər. Quranda günahkarların müxtəlif xüsusiyyətlərindən bəhs edilir və insanlar belə xəbərdar edilirlər:

**Allaha qarşı yalan uydurandan və ya Onun ayələrini yalan hesab edəndən daha zalım kim ola bilər? Doğrudan da, günahkarlar nicat tapmazlar. (Yunis surəsi, 17)**

**Sizdən əvvəlki nəsilləri də zülm etdiklərinə və elçiləri onlara açıq-aşkar dəlillər gətirdikləri halda (onlara) inanmadıqlarına görə məhv etdik. Biz günahkar adamları belə cəzalandırırıq.** (Yunis surəsi, 13)

Quranda cəmiyyətin hüzur və güvənliyini pozan, insanlar arasında qarışıqlıq meydana gətirən, eləcə də yer üzündə pisliyi yaymaq üçün hiylə quranların da günahkar olduqları bildirilir. Darvinizmi təməl götürən materialist ideologiyaların, həmçinin kommunizm və faşizm kimi cərəyanların əsas xüsusiyyətlərindən biri cəmiyyətin nizamını pozub anarxiya yaratmaqdır. Bunu nəzərə alsaq, bu sistemi yaşayıb yayanların Quranda bildirilən günahkar insanlar olduğu anlaşılar. Bir ayədə belə deyilir:

**Beləliklə, hər bir ölkədə oranın günahkarlarını başçılar təyin etdik ki, onlar orada yaramaz işlər görsünlər. Halbuki onlar o yaramaz işləri yalnız özlərinə qarşı edirlər və hiss etmirlər. (Ənam surəsi, 123)**

Ayədə deyildiyi kimi, həmin şəxslər öz sistemlərini yayıb genişləndirmək üçün müxtəlif planlar qururlar. Belə vəziyyətdə həmin xüsusiyyəti daşıyanlara və bu sistemi yaymağa çalışanlara qarşı fikri mübarizə aparmaq çox əhəmiyyətlidir. Çünki yer üzündə təxribatın yerinə sülhün, qarşıdurma və anarxiyanın yerinə isə hüzurun hakim olması üçün bu fəaliyyətlərin qarşısı alınmalıdır. Bunun üçün həmin insanların təməl

fikirlərinin əsassızlığını ifşa edib yox etmək lazımdır. Belə bir vəzifəni ancaq iman edənlər öz üzərilərinə götürərlər. Çünki dəccaliyyətin fitnəsi iman edənlərə əsla təsir edə bilməz. Möminlər Allahın Quranda təsvir etdiyi günahkar xarakterdən və bunun ən kiçik əlamətini daşımaqdan belə çəkinən insanlardır. Quranda iman edənlərin yer üzündə təxribata qarşı mübarizə apardıqları haqqında belə buyurulur:

**Heç olmasa, sizdən əvvəlki nəsillərdə yer üzündə fitnə-fəsad törətməyi qadağan edən ağıl və hikmət sahibləri olaydı. Onlardan yalnız xilas etdiyimiz az bir qismi belə idi. Zülm edənlər isə onlara verilmiş dünyanın ləzzətinə uydular və günahkar oldular. (Hud surəsi, 116)**

## DƏCCAL XÜSUSİYYƏTİ NƏFSİN AZĞINLIĞI ÜZƏRİNƏ QURULUB

Günahkarların ən önəmli xüsusiyyətlərindən biri odur ki, onlar özlərinə Quran əxlaqını deyil, nəfslərinin istəklərini (şəxsi istək və həvəslərini) rəhbər götürüblər. Halbuki insanın nəfsinə tabe olması böyük bəladır. İnsanın nəfsinə tabe olmağa başlaması ilk öncə öz daxilində sıxıntı yaşamasına səbəb olur. İnsanda vicdana tabe olmağın verdiyi rahatlıq və hüzurun yerini özünə inamsızlıq və narahatlıq alır. "...***Nəfs (adama) pis işləri əmr edər...***" (Yusif surəsi, 53) ayəsində də deyildiyi kimi, nəfs hər zaman pisliyi əmr edir. Daima qısqanclıq, həsəd, kin, intiqam, sevgisizlik və mərhəmətsizlik kimi hislərə sövq edir . İman edən isə nəfsinin deyil, vicdanının səsini dinləyib iradəsindən istifadə edər və gözəl əxlaq göstərər. Çünki Allah Quranda insana nəfsinin pisliklərindən çəkinib qorunmağı əmr etmişdir və insan vicdanına tabe olaraq bu əmri yerinə yetirə bilər. Yəni hər insan nəyin pis olduğunu bildiyi kimi, nəyin yaxşı olduğunu və günahdan necə uzaq duracağını da yaxşı bilir. Bu həqiqət ayələrdə belə açıqlanır:

**And olsun nəfsə və onu yaradıb kamilləşdirənə, ona günahları və qorxmağı təlqin edənə! Nəfsini təmizləyən uğur qazanmışdır. Onu (günaha) batıran isə ziyana uğramışdır. (Şəms surəsi, 7-10)**

Buna baxmayaraq, insanların böyük qismi vicdanlarının səsini dinləmirlər, özlərini nəfslərinin yönləndirməsinə razı olurlar. Vicdanına tabe olan adamla nəfsinə tabe olan arasında böyük fərq var. Vicdanının səsini dinləyən adam onu əsəbiləşdirə bilən hadisə qarşısında çox sakit davranır. Nəfsinin səsini dinləyən adam isə qəzəbinə yenilib kin və intiqam duyğuları ilə hərəkət edir. Eyni şəkildə, haqsızlıqla qarşılaşan adam vicdanının səsini dinləyərək haqq və ədalətlə cavab verməli olduğunu bilir. Nəfsinə tabe olan adam isə ona qarşı haqsızlıq etdiyini düşündüyü insandan daha çox əvəz çıxmaq istəyir. Vicdanına tabe insan mərhəmətli, səbirli və fədakar olduğu halda, nəfsinə tabe olan adam zalım, amansız və eqoist olur. Bir sözlə, nəfsinə tabe olan insanların çoxluq təşkil etdiyi cəmiyyətdə sülh, hüzur və təhlükəsizlikdən bəhs etmək mümkün deyil. Allah bir ayədə buyurur ki, insanlar nəfslərinə tabe olduqda yer üzündə nizam qalmaz:

**Əgər haqq onların nəfslərinin istəklərinə tabe olsaydı, göylər, yer və onlarda olanlar fəsada uğrayardı. Doğrusu, Biz onlara zikr gətirdik, onlar isə özlərinə verilən zikrdən üz döndərirlər. (Muminun surəsi, 71)**

Odur ki, dəccalın dini-mənəvi dəyərlərin hədəf almasının əsas səbəblərindən biri də budur. Çünki din əxlaqı insanların vicdanlarını dinləməyi və nəfsin pisliklərindən uzaq durmağı buyurur. Dəccalın ideologiyası isə tam əksini müdafiə edir. Buna görə də insanları bir-birinə bağlayan, sosial nizamı təmin edən ünsürləri (din əxlaqı və bu əxlaqdan qaynaqlanan mənəvi dəyərlər) aradan qaldırır, eləcə də insanlar arasında qarışıqlıq və münaqişəni təşviq edir. Dəccaliyyətin insanların nəfslərinə uyğun nizamın üzərinə qurulduğunu Peyğəmbərimiz (səv) bir hədisində belə buyurur:

*Axırzaman fitnəsi o qədər dəhşətlidir ki, heç kim nəfsinə hakim ola bilməz.*[6]

İslam alimləri bu hədisi şərh edərkən dəccalın insanları həvəs və istəklərinə tabe olmağa dəvət edəcəyini, bunu bəzəkli göstərəcəyini bildiriblər. Məsələn, Bədiüzzaman Səid Nursi bu hədisi açıqlayarkən belə deyib:

*... (İnsan) nəfsinə məğlub olub, o alova sərxoşluq içində sürüklənib düşər və yanar... (Dəccal) pərvanə kimi nəfspərəstləri (nəfsinə düşkün olanları) ətrafına toplayıb sərsəm edər...*

## DƏCCAL

## YER ÜZÜNDƏ TƏXRİBAT TÖRƏDİR

Dəccalın sisteminin insanlara ən böyük zərər verən yönü yer üzündə təxribat törətmək, hüzur və nizamı pozmaq üzərinə qurulmasıdır. Dəccalın əsas vəsfi təxribat törətmək üçün şiddət, terror və anarxiyanı körükləməsidir. Təxribat törətmək çox geniş anlayışdır. İnsanların hüzurunu qaçıran, təhlükəsizlik və sülh mühitini pozan hər şey təxribatdır. İki ölkə arasında heç bir səbəb olmadan baş verən müharibə, topluluq içində süni səbəblərə görə meydana gələn qarşıdurma, məsum və mülki insanları hədəf alan terror hücumları, gündəlik həyatda rast gəlinən fərdi şiddət kimi olaylar təxribatın nümunələri sayıla bilər. Bu dövrdə gün keçdikcə sayı artan və yayılan müharibələr, eləcə də şiddət hadisələri dəccalın təxribatının ölçüsünü göstərməsi baxımından diqqət çəkir.

Təxribat Quranda diqqət çəkilən və insanların çəkinməli olduğu təhlükələrdən biridir. Allah insanlara təxribat törətməyi qadağan etmiş və buna yol verənləri sevmədiyini bildirmişdir. İnkarçıların yer üzündə sürəkli təxribat çıxarmağa, savaş, qarşıdurma və qarışıqlıq mühiti meydana gətirməyə çalışdığı bir ayədə belə xəbər verilir:

**... Biz onların arasına Qiyamət gününə qədər ədavət və kin saldıq. Onlar hər dəfə müharibə alovunu yandırdıqda Allah onu söndürər. Onlar yer üzündə fitnəkarlıq törətməyə səy göstərirlər. Allah isə fitnəkarları sevmir! (Maidə surəsi, 64)**

Göründüyü kimi, ayədə bu insanların yer üzündə müharibə çıxarmağa çalışdıqlarına diqqət çəkilir. Müharibə, qarşıdurma, terror və anarxiya kimi hallar dəccalın ən çox əl atdığı üsullardır. Başqa bir ayədə bu dəccali zehniyyət belə açıqlanır:

**O kəslər ki, Allahla əhd-peyman bağladıqdan sonra onu pozur, Allahın qovuşdurulmasını əmr etdiyi şeyləri kəsir və yer üzündə fitnə-fəsad törədirlər. Məhz onlar ziyana uğrayanlardır! (Bəqərə surəsi, 27)**

Quran əxlaqı isə insanların sülh və təhlükəsizlik içində yaşamalarını təmin edir. Qurandakı hədəf hər inancdan və millətdən olan insanların sülh şəraitində yaşayacağı mühit meydana gətirməkdir. Yer üzünün nizama salınması isə ancaq din əxlaqının yaşanması və insanların vicdanlarına görə hərəkət etməsi ilə mümkündür. Ayədə belə buyurulur:

**Yer üzü islah olunduqdan sonra orada fəsad törətməyin. Allaha qorxu və ümidlə yalvarın. Həqiqətən, Allahın mərhəməti yaxşılıq edənlərə yaxındır. (Əraf surəsi, 56)**

## TƏXRİBATÇILIQ İNSANLAR ARASINDA

## ŞİDDƏTİN TƏŞVİQ EDİLMƏSİ İLƏ YAYILIR

Təxribatçı xüsusiyyətin əsasında kin və intiqam duyğuları durur. Müharibə, münaqişə və terror əməlləri ilə təxribat törədən şəxslər səbir etməyi, ədalətlə hökm etməyi bilməzlər. Onlar problemləri sülh yolu ilə deyil, şiddətə əl ataraq həll etməyə çalışan insanlardır. Eyni şəkildə, dəccalın dinində də insanlar uzlaşdırıcı üslubdan istifadə etməzlər. Əksinə olaraq, mübahisə və münaqişəyə üstünlük verərlər, kin və düşmənlik hislərini körükləməklə insanları bir-birinə qarşı çıxarırlar. Belə ki, hədislərdə dəccalın kin, qəzəb və şiddətin geniş yayıldığı dövrdə ortaya çıxacağı və onun bu mühitdən istifadə edəcəyi xəbər verilmişdir. Bu hədislərin bəziləri belədir:

***Dəccal dinin zəiflədiyi, elmin qeyri-kafi hala gəldiyi zaman ortaya çıxar.*** [7]

***O günlər ağılların yox olduğu günlərdir. İnsanlar bir-birlərini öldürərlər. Ta ki, adam qonşusunu, əmioğlusunu, yaxınını öldürər. Öldürən niyə öldürdüyünü, öldürülən də niyə öldürüldüyünü bilməz.*** [8]

Əslində, bunlar şeytanın əsas xüsusiyyətlərindən biridir. Şeytan üsyankar, kindar və qəzəbli xüsusiyyətə sahibdir: dünyadakı məqsədi insanları bu yöndə təşviq etməkdir. Buna görə də şeytan insanların arasını vurmağa çalışır. Allah bu təhlükəni Quranda belə xəbər verir:

**Qullarıma de ki, ən gözəl sözləri danışsınlar. Çünki şeytan onların arasına ədavət sala bilər. Həqiqətən, şeytan insanın açıq-aydın düşmənidir. (İsra surəsi, 53)**

Şeytanın təsirinə düşənlər rahat və mülayim şəkildə həll edilə bilən hadisələri çox böyüdürlər. Xoşlarına gəlməyən hər şeyə qəzəblə yanaşırlar. Qəzəbləndiklərinə görə doğru düşünə bilməz, hadisələri ədalətli və obyektiv şəkildə dəyərləndirməzlər. Şeytan onların bu halından istifadə edib onları şüursuz davranmağa, cinayət törətməyə vadar edir. Onlara qəzəblənmədikləri halda, sıxılacaqlarını, narahat qalacaqlarını təlqin edir.

Quranda hz.Adəmin oğullarının arasında baş verən hadisəni təsvir edən hekayət şeytanın təlqini ilə davranan insanın aqressiv xüsusiyyətə malik olduğunun əhəmiyyətli nümunəsidir:

**Onlara Adəmin iki oğlunun gerçək əhvalatını oxu. O zaman ikisi də qurban vermiş, onların birindən qəbul edilmiş, digərindən isə qəbul edilməmişdi. (Qurbanı qəbul olmayan oğlu öz qardaşına) demişdi: "Səni hökmən öldürəcəyəm!" (Qardaşı da ona belə) demişdi: "Allah ancaq müttəqilərdən qəbul edər! Sən məni öldürmək üçün mənə əl qaldırsan da, mən səni öldürmək üçün sənə əl qaldıran deyiləm. Həqiqətən, mən aləmlərin Rəbbi Allahdan qorxuram. Mən istəyirəm ki, sən, həm mənim günahımı, həm də öz günahını üzərinə götürəsən və od sakinlərindən olasan. Zalımlara veriləcək cəza budur". Nəfsi onu qardaşını qətlə yetirməyə vadar etdi və o da nəfsinə tabe olaraq onu öldürdü və ziyana uğrayanlardan oldu. (Maidə surəsi, 27-30)**

Ayələrdə göründüyü kimi, şeytanın təlqini ilə nəfsinə tabe olan qardaş qəzəb və qısqanclıqla hərəkət etmiş və bu hisləri onu cinayətə sövq etmişdir. Mömin əxlaqı sərgiləyən digər qardaş isə qarşı tərəfin aqressiv və haqsız rəftarı qarşısında təvazökarlığını itirməyib gözəl əxlaq göstərmişdir. Eyni şəkildə, Allahın ona verdiyi nemətlərə görə hz.Yusifə qısqanclıq və qəzəb duyan qardaşları da onu öldürməyə cəhd göstərmişdilər. Hz.Yusif isə başına gələn hadisələrə baxmayaraq, qardaşları ilə yenidən qarşılaşanda mehriban davranıb onları bağışlamışdır. Bu, Allahın iman gətirənlərə əmr etdiyi üstün əxlaqın bir nümunəsidir. Ayədə müsəlmanların gözəl əxlaqı belə təsvir edilir:

**O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da xərcləyir, qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir. (Ali-İmran surəsi, 134)**

## DƏCCAL İNSANLARI İFRATA YÖNLƏNDİRİR

Dəccalın yer üzündə təxribat və qarışıqlıq törətmək üçün istifadə etdiyi başqa bir üsul da insanları ifrata, yəni fanatizmə təşviq etməsidir. İnsanlar inandırılırlar ki, onların öz inanc və düşüncələri uğrunda ifrata varmağa haqları var. Sülh və ya dialoq vasitəsilə əldə edilə bilən nəticələri ancaq şiddətlə həll edəcəklərini düşünürlər. Səbəbsiz qısqanclıq, yersiz qəzəb amansız cinayət və hücumlarla nəticələnir. Çünki ifrata varan insan ağıllı davranmaqdan uzaqlaşır, məntiqli qərarlar verə bilməyib mühakimə qabiliyyətini itirir. Bu cür insanlar yalnız hisləri ilə davranırlar, eləcə də reaksiya və üslublarına qəzəb və hiddət hakim olur. Beləliklə, vicdani narahatlıq keçirmədən hər cür şiddətə əl atan qruplar və fərdlər ortaya çıxır.

Halbuki Quran əxlaqı insanları ifrata varmaqdan və həddi aşmaqdan çəkindirir. Allah bir ayədə insanlara nəfslərinə tabe olub ifrata varanlara itaət etməməyi buyurur və iman gətirənləri dəccalın bu hiyləsinə qarşı xəbərdar edir:

**... Qəlbini Bizi xatırlamaqdan qafil etdiyimiz, nəfsinin istəklərinə uyan və işində ifrata varan bir kimsəyə itaət etmə! (Kəhf surəsi, 28)**

İfratçılıq insanı Quran əxlaqından uzaqlaşdırır. Hər şəraitdə təmkinli, təvazökar və ağıllı davranmaq möminlərin ən əsas xüsusiyyətlərindən biridir. İman gətirənlərin vəzifəsi insanlara yaxşılığı əmr etmək və

onları pislikdən çəkindirməkdir. Bu, insanlara din əxlaqını izah edərək və dinsiz sistemlərlə fikri mübarizə apararaq yerinə yetiriləsi vəzifədir. Mömin bilir ki, onun missiyası yalnız doğruları təbliğ etmək və insanlara yol göstərməkdir. Möminlər insanları iman gətirməyə məcbur edə bilməzlər, çünki Allah Quranda *"Dində məcburiyyət yoxdur"* (Bəqərə surəsi, 256) şəklində buyurmuşdur. İnsanlara hidayət verən, yəni onlara iman nəsib edən Allahdır. İman gətirənlər isə yalnız bu hidayətə vəsilə olmaq üçün cəhd göstərirlər.

**Onların doğru yola gəlməsi sənə aid deyildir. Yalnız Allah istədiyi şəxsi doğru yola yönəldir... (Bəqərə surəsi, 272)**

## DƏCCALA TABE OLANLARIN ORTAQ XÜSUSİYYƏTİ:

## ŞEYTANİ MƏNTİQLƏ HƏRƏKƏT EDİRLƏR

***Onun (dəccalın) yanında iki çay olacaq. Göz birini ağappaq su, o birini isə qaynayan od kimi görəcək, fəqət içəri girənlər bunun tam tərsini görəcəklər.*** [9]

***Onun (dəccalın) fitnələrindən biri də odur ki, yanında cənnət və cəhənnəm olacaq. Cənnəti cəhənnəm, cəhənnəmi isə cənnətdir.*** [10]

Yuxarıdakı hədislər dəccalın insanlara yaxşını pis, pisi də yaxşı kimi göstərdiyindən bəhs edən rəvayətlərdəndir. Bu, şeytanın xüsusiyyətlərindən biridir, şeytan da eynilə dəccalın etdiyini tətbiq edir. Belə ki, insanların ancaq özünə tabe olduqda xilas olacaqlarını və doğru yolda olacaqlarını iddia edir. İnsanların yaxşılığını istədiyi üçün dinsizliyə çağırdığını irəli sürür:

**De: "Biz Allahı qoyub bizə nə bir xeyir, nə də bir zərər verə bilməyən şeylərəmi ibadət edəcəyik? Allah bizi doğru yola yönəltdikdən sonra, şeytanların yer üzündə azdırdığı, (mömin) dostlarının isə: "Bizə tərəf gəl!"(–deyib doğru yola) çağırdıqları çaşbaş qalan kimsə kimi geriyəmi döndəriləcəyik?" De: "Ancaq Allahın haqq yolu doğru yoldur! Bizə əmr edilmişdir ki, aləmlərin Rəbbinə təslim olaq. (Ənam surəsi, 71)**

Şeytana tabe olan insanların da yaxşılıqdan başqa bir şey istəmədiklərini iddia etmələri bir ayədə belə bildirilir:

**Öz əlləri ilə törətdikləri əməllərə görə onlara müsibət üz verdikdən sonra sənin yanına gəlib: "Biz ancaq yaxşılıq etmək və (mübahisə edənləri) barışdırmaq istədik!"– (deyə) Allaha and içdikdə necə olacaq? (Nisa surəsi, 62)**

Dəccali sistemdə şiddət, qarşıdurma və qovğaların adi qarşılanması insanların pisi yaxşı kimi görmələrinə bir nümunədir. Yuxarıda da bildirdiyimiz kimi, insanlar istədiklərini əldə etməyin ən təsirli yolunun şiddətə əl atmaq olduğuna həm özlərini, həm də ətrafındakıları inandırıblar. Məsum insanları qətl etməklə və günahsız insanlara zərər verməklə haqq yolda olduqlarını zənn edirlər. Terror təşkilatlarının üzvləri və ya dünyanın müxtəlif bölgələrində savaş və qarşıdurmaya səbəb olan insanlar şiddətə əl atmağı haqlı görürlər. Halbuki bu, böyük yanlışlıq və zalımlıqdır. Günahsız insanlara qarşı şiddət tətbiq edən heç bir mübarizə haqlı deyil.

Bu yanlışlığın əsasında həmin insanların şeytana və davamçısı dəccala tabe olmaları, başqa sözlə desək, şeytanın məntiqi ilə hərəkət etmələri durur. Halbuki hər şeyin yaradıcısı olan Allah insanlara şeytanın yolu ilə getməməyi əmr edir. Allah bunu ayələrdə belə buyurur:

**Ey insanlar! Yerdə olan halal və təmiz ruzilərdən yeyin, şeytanın addım izləri ilə getməyin! O, sizin açıq-aşkar düşməninizdir. (Bəqərə surəsi, 168)**

**Şübhəsiz ki, şeytan sizin düşməninizdir, siz də onu düşmən sayın. O, öz tərəfdarlarını Od sakini olmağa çağırır. (Fatir surəsi, 6)**

Rəbbimizin bütün əmrlərinə baxmayaraq, şeytanın məntiqi ilə hərəkət edən insanın ağlı və şüuru qapanır. Bu, inkarçıların və din əxlaqından uzaq olanların əsas xüsusiyyətidir. Quranda gözləri olduğu halda

görməyən, qulaqları olduğu halda eşitməyən şəxslərə diqqət çəkilmiş, Allahın onların qəlblərini möhürlədiyi bildirilmişdir:

**Həqiqətən, kafirləri qorxutsan da, qorxutmasan da, onlar üçün fərqi yoxdur, iman gətirməzlər. Allah onların qəlblərini və qulaqlarını möhürləmiş, gözlərinə də pərdə çəkmişdir. Onlar üçün böyük bir əzab vardır. (Bəqərə surəsi, 6-7)**

**Biz bu Quranda insanlar üçün hər cür məsəllər çəkdik. Əgər sən onlara bir möcüzə gətirsən, kafir olanlar mütləq: "Siz ancaq yalan uyduranlarsınız!"– deyəcəklər. Allah bilməyənlərin qəlbini belə möhürləyir. (Rum surəsi, 58-59)**

Quranda **"... Onların qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır" (Əraf surəsi, 179)** ayəsi ilə bildirildiyi kimi, insanın görmə və eşitmə hissinin çalışmaması qəlbin ölü halına gəlməsinə işarə edir. Bu da dəccalın sisteminə tabe olanların doğrunu yanlışdan ayırd edə bilmədiklərini və zalım olduqlarını göstərir. Belə insan özünə və ətrafına verəcəyi zərərlərə əhəmiyyət verməz, həmçinin insanlara asanlıqla zülm edərlər. Dəccalın yalanlarına inanıb yaxşını pis, pisi də yaxşı görərlər. Onların halı Quranda belə bildirilir:

**Ayələrimizi yalan sayanlar qaranlıqlar içində (qalmış) karlar və lallardır. Allah istədiyini azdırar, istədiyini isə düz yola yönəldər. (Ənam surəsi, 39)**

Allah şeytanla əlbir olan və yer üzündə şeytanın məntiqini yaşatmağa çalışan bu zalım insanların axirətdə alacaqları qarşılığı belə xəbər verir:

**(Şeytan) onlara vədlər verir və onları xülyalara salır. Lakin şeytanın onlara verdiyi vədlər aldatmaqdan başqa bir şey deyildir. Onların sığınacaqları yer cəhənnəmdir. Onlar oradan xilas olmağa bir yol tapa bilməzlər. (Nisa surəsi, 120-121)**

## DƏCCALIN QURDUĞU HİYLƏLƏR DƏ ALLAHIN NƏZARƏTİNDƏDİR

Peyğəmbərimiz (səv) hədislərdə dəccalın hiylələrinin böyüklüyünə diqqət çəkmiş və bizi bunlara qarşı xəbərdar etmişdir. Həqiqətən də, dəccaliyyətin fitnəsi elə böyükdür ki, səmimi iman gətirənlərdən başqa, demək olar ki, bütün insanları əhatə edir. Bu gün dünyada davam edən əxlaqi degenerasiya və xaos haqqında ətraflı düşünmək bu fitnənin böyüklüyünü yaxşı göstərəcək. Ölkəsindən, millətindən və irqindən asılı olmayaraq hər kəs bu fitnəyə şahidlik edir.

Lakin bir şeyi unutmaq olmaz. Quranın bir çox ayəsində iman etməyənlərin qurduğu bütün hiylələrin gerçək sahibinin Allah olduğu bildirilmişdir. Allah insanları imtahan etmək, saleh qullarını ortaya çıxarmaq, onları kamilləşdirmək və inkarçıların küfrünü göstərmək üçün şeytanın fəaliyyətlərinə izn vermişdir. Allah dəccaliyyəti də qədər (tale) içində və mütləq məğlub olacaq şəkildə yaratmışdır. İnkar edənlərin hiylələri Allahın izni ilə heç bir zaman müvəffəqiyyət qazanmaz. Bir ayədə bu sirr belə xəbər verilir:

**(Zalımlar) öz hiylələrini qururdular. Halbuki onların hiyləsi Allaha bəlli idi. Onların hiyləsi ilə dağlar yerindən tərpənən deyildir. (İbrahim surəsi, 46)**

Tarix boyu inkarçılar müxtəlif hiylələr qurmuşlardır. Ancaq həmin hiylələr Allahın qanunun uyğun olaraq öz sahibinə geri dönmüşdür. Bu, Allahın dəyişməz qanunudur. Bir ayədə belə xəbər verilir:

**... Onlara qorxudan (elçi) gəldikdə isə bu onların ancaq nifrətini artırdı. (Bütün bunlar) onların yer üzündə təkəbbür göstərmələrinə və yaramaz hiyləgərliklər törətdiklərinə görə idi. Yaramaz hiylələr isə ancaq öz sahiblərini qaplayar. Onlar əvvəlkilərin başlarına gələn aqibətdən başqasınımı gözləyirlər? Sən Allahın qayda-qanununa heç bir əvəz tapa bilməzsən, Allahın qayda-qanununda heç bir dəyişiklik də tapa bilməzsən. (Fatir surəsi, 42-43)**

Eyni aqibət dəccalın fikir sistemi və qurduğu hiylələr üçün də əsaslıdır. Bu sistem insanları Allahın yolundan uzaqlaşdırmaq üçün qurulmuş xüsusi hiylədir. Həmin hiylələr nə qədər böyük olsa da və qurulan planlar nə qədər təsirli görünsə də, hamısı Allahın nəzarətindədir. Dəccal da, qurduğu hiylələr də yalnız Allahın diləməsi ilə mövcuddur. "*Allah istəməyincə, siz istəyə bilməzsiniz*!" (İnsan surəsi, 30) ayəsi ilə də buyurulduğu kimi, Allah diləmədikcə heç kim bir şey edə və hiylə qurub həyata keçirə bilməz.

## DƏCCALIN AYİNİ TERROR

Buraya qədərki hissələrdə axırzamanın ən böyük fitnəsi olan dəccaliyyətin necə cərəyan olduğunu və bu sistemə tabe olanların hansı xarakterə malik olduqlarını izah etdik. Bu hissədə isə dəccalın ən əhəmiyyətli fitnələrindən biri olan terror mövzusundan bəhs edəcəyik.

Terror dövrümüzdə ən çox istifadə olunan terminlərdən biridir. Eyni zamanda cəmiyyətdə terrora müxtəlif münasibətlər bəslənir. Bunun əsas səbəblərindən biri odur ki, bəzi qruplar tərəfindən terrorçu kimi görünən şəxsləri başqaları haqlı qəbul edirlər. Halbuki məqsədindən asılı olmayaraq, şiddətə əl atan, bu minvalla məsum insanları hədəf alan bir təşkilatın məqbul qarşılanması mümkün deyil. İnsanlar və ya cəmiyyətlər fərqli şeylər tələb edə və bunda haqlı da ola bilərlər. Lakin bu tələbləri qəbul etdirməyin yolu şiddətə əl atmaq deyil. İnsan silahlı hücuma məruz qaldıqda isə özünü müdafiə edə bilər. Buna görə də günahsız insanları hədəf alan hər cür şiddət və münaqişə, əslində, bir növ terror əməlidir.

Terrorun əsas strategiyası insanlar arasında qorxu yaymaq, bu yolla da istəklərini qəbul etdirməkdir. Qorxu terrorun dayaq nöqtəsidir. Terrorçu qruplaşmalar tələblərini demokratik yollarla əldə etməyə çalışmağın yerinə, şiddətə əl atırlar və bunun da çox yayındırıcı olduğunu düşünürlər. Onlara görə terror nə qədər amansız olarsa, o qədər qorxu verəcək, başqa sözlə desək, hədəfinə o dərəcədə yaxınlaşacaq.

Terrorun ən dəhşətli xüsusiyyətlərindən biri heç bir əxlaqi dəyərə sahib olmaması və heç bir qayda tanımamasıdır. Terrora əl atan şəxsdə şəfqət, mərhəmət və güzəşt yoxdur. Onu yönləndirən kin, qəzəb və intiqam hissləridir. Terrorçu şüursuz olaraq hara çatacağını düşünmədən yalnız intiqam almağı düşünür. Terror zamanı baş verənlər onun vicdanında heç bir təsir meydana gətirməz. Çünki terroru həll yolu kimi görən adamın vicdanı, dolayısilə ağıl və fərasəti qapalı olur.

Halbuki Quran əxlaqında qəzəbin yeri yoxdur. Allah insanlara qəzəb kimi nəfsani hisslərə qapıldıqları təqdirdə, yer üzündə təxribat və qarışıqlıq çıxacağını bildirmişdir. Buna görə də hər zaman dostluq, sülh və dostluğun tərəfində olmağı əmr etmişdir. Bu əxlaqı göstərdikdə şiddətə əsaslanan dəccal sistemi təməlindən çökər və terrorun, anarxiyanın zəmini ortadan qalxar. Beləliklə də, yer üzünə hakim olan qarışıqlıq mühiti sona çatar. Allah bir ayədə insanlara bu əxlaqı belə nəsihət edir:

**Sən bağışlama (yolunu) tut, yaxşı iş görməyi əmr et və cahillərdən üz döndər. (Əraf surəsi, 199)**

### Din adından terror törədənlər

Din əxlaqı hər cür terror əməlini tamamilə qadağan edir, ancaq bir çox terrorçu qruplaşmalar din adından ortaya çıxdıqlarını iddia edirlər. Din adından qətliam törədənlərin və ya şiddət tətbiq edənlərin dünya görüşlərinə nəzər saldıqda azğın inanca sahib olduqları üzə çıxır. Bu insanlar gerçək dini bilməyən, din əxlaqını anlamayan və yaşamayan şəxslərdir. Çünki Allahın varlığına inanıb Allahdan qorxan və Allahın endirdiyi kitaba tabe olan şəxsin günahsız və müdafiəsiz insanlara zərər verməsi mümkün deyil. Buna görə də İslam adından şiddət və terror törədənləri dindar camaat adlandırmaq doğru deyil.

Bir dinin və ya başqa fikir sisteminin çatdırmaq istədiyi əsil qayə bəzən onun saxta tərəfdarları tərəfindən yanlış şərh oluna bilər. Bu həm xristianlıq, həmdə yəhudilik dininə aiddir. Məsələn, səlibçilər 11-ci əsrin sonunda Fələstin torpaqlarını fəth etmək məqsədilə Avropadan yola çıxan avropalı xristianlar idi. Din adından yola çıxsalar da, keçdikləri hər yerdə vəhşilik törətmişdilər.

Xristianlıqda şiddətə qətiyyən yer yoxdur və xristianlıq sevgi dinidir. Dini yanlış şərh edən bu barbarların tətbiq etdiyi vəhşiliyin xristianlıq dini ilə əlaqəsinin olmadığı açıq-aydındır.

Din adından terror törədənlərin çoxu isə ilahi dinlərə deyil, bir neçə bütpərəst inanclara və ya yeni törəyən mistik təlimlərə bağlı fanatik qruplaşmalardır. Başda Amerika və Yaponiya olmaqla, bu qruplaşmalar həm öz mənsublarına, həm də digər insanlara qarşı qorxunc şiddət tətbiq ediblər. Bunların arasında bir fermada özlərini yandıraraq ölümə gedən və ya yataqlarında toplu halda intihar edənlər olduğu kimi, Yaponiyada metroya atdıqları sarin qazı ilə məsum insanlara zərər verən qruplaşmalar da vardır. Terror əməlləri ilə diqqət çəkən digər qruplaşmalar isə Ku Klux Klan və neonasistlər kimi radikal irqçi təşkilatlanmalardır. Xüsusilə son iyirmi ildə irqçi və faşist düşüncənin gənclər arasında yayılması şiddət hadisələrinin  çoxalmasına səbəb olmuşdur. Bundan bir neçə il öncə Almaniyada türk soydaşlarımıza törədilən əməllər, digər bəzi Avropa ölkələrində Asiya və Afrika əsilli şəxslərə qarşı edilən təcavüzkar hücumlar, eləcə də Amerikada hələ də zənci və ərəblərin məruz qaldığı şiddət hadisələri bu qruplaşmaların törətdiyi əməllərdən bir neçəsidir.

Unutmaq olmaz ki, bu kitabda bəhsi keçən və keçməyən hər cür azğınlığın təməlində insanların din əxlaqından uzaqlaşmaqları və gerçək dini bilmədən yaşamaqları durur. Çünki İslam, xristianlıq və yəhudiliyin ortaq din əxlaqı şiddət və vəhşiliyi əsas alan dəccal sisteminə tam qarşıdır. Dinin əsasında sevgi, şəfqət və mərhəmət var. Allah insanlara bir-birlərinə qarşı ədalətli, anlayışlı və mərhəmətli olmağı əmr edir. Bundan başqa, insanlar bu gözəl əxlaqı dinindən, dilindən, irqindən və cinsindən asılı olmayaraq, hər kəsə göstərməklə məsuliyyət daşıyırlar. Buna görə də din əxlaqının yaşandığı bir cəmiyyətdə şiddət tətbiq oluna bilməz. Din əxlaqı insanlara hüzur, sülh və güvənlik gətirən yeganə sistemdir. Allah bir ayədə belə buyurur:

**Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə (islama) gəlin! Şeytanın yolu ilə getməyin, çünki o, sizin açıq düşməninizdir! (Bəqərə surəsi, 208)**

Növbəti səhifələrdə şiddəti həyatın ayrılmaz hissəsi kimi görən qrup və təşkilatlar haqqında qısa bilgi verəcəyik. Bu hissənin hazırlanmasındakı məqsəd şiddət tətbiq edən bütün terror təşkilatları haqqında geniş məlumat vermək deyil. Buradakı məqsəd hansı düşüncəni müdafiə edirmiş kimi görünsə də, şiddəti həll yolu seçən bu qruplaşmaları yönləndirən dəccalın fikir sisteminin ifşa edilməsidir. Bu məlumatlar bizə dünyada hakim olan dəccal sisteminin səbəb olduğu böyük təxribatı göstərməsi baxımından olduqca əhəmiyyətlidir.

## İRQÇİ TERROR

İkinci Dünya Müharibəsi irqçi və faşist ideologiyanın başlatdığı müharibə idi. Bu ideologiyanın şiddət və qarşıdurma kimi dəyərləri dünyanı bir anda bürüdü. 55 milyon insan faşist vəhşiliyinin qurbanı oldu. Müharibənin müttəfiqlərin lehinə nəticələnməsi faşist ideologiyanın məğlubiyyətinə səbəb oldu, lakin faşizm yox olmadı, sadəcə gizləndi. Keçdiyimiz son on ildə isə dünyada irqçi və faşist təşkilatlanmaların və şiddət əməllərinin sayı getdikcə çoxaldı. Bir tərəfdən Avropa neonasistlərin səbəb olduğu şiddət hadisələri ilə mübarizə aparır, digər tərəfdən Amerika yenidən aktivləşən Klu Klux Klan və bənzəri Ağ İrqin Üstünlüyü təşkilatlarına qarşı tədbirlər alır. Bu gün istər neonasistlər, istərsə də Klu Klux Klan üzvləri müxtəlif hücumlar təşkil edir, öz aralarında şiddət və terroru təşviq edirlər.

Bir çoxları Klu Klux Klan təşkilatının qaradərili insanlara qarşı təzyiqlərinin 20-30-cu illərdə qaldığını və bu köhnə təşkilatın tarixdə qaldığını düşünə bilərlər.  Halbuki Klan hələ də yaşayır. Bu gün ABŞ-da fərqli adlarla da olsa, çoxlu sayda Klan kilsəsi və bu kilsələrin təşkilatlarına bağlı müxtəlif irqçi qruplar mövcuddur. Həmin kilsə və qrupların üzvləri yalnız qaradərililərə qarşı deyil, başda Amerikadakı müsəlmanlar olmaqla, Avropadakı ağ irqdən başqa bütün irqlərə qarşıdırlar. Eyni zamanda inanırlar ki, bu irqlərə qarşı ciddi mübarizə aparmaq lazımdır.

Bilindiyi kimi, Klan təliminin əsası avropalı ağ irqin digər irqlərdən üstün olması və bu irqin digər irqlərlə  qətiyyən qarışmaması fikrinə söykənir. Ağ irqə başqalarının qarışmaması üçün onların olduğu və yaşadığı sahələrdə digər irqlərin yaşamağına izin verilməməlidir. Çünki bu düşüncəyə görə, digər irqlərin ağların sahib olduqları imkanları əldə etmə haqqı yoxdur. Bu irqlər ağların saflığını və üstünlüyünü

ləkələməyə çalışan parazitlər olaraq görülür, bunlara qarşı hər cür tədbirin alınmasının labüd olduğu düşünülür. Klanın bu düşüncələri Amerikada yaşayan digər irqlərə qarşı gerçəkləşdirilən hücumların çıxış nöqtəsidir. Bu təlqinlərin əsasında sevgi, mərhəmət və dialoq deyil, nifrət və aqressivlik var.

İrq üstünlüyü anlayışının əsasını Darvinin təkamül nəzəriyyəsi təşkil edir. Darvin insan irqlərinin bəzilərinin, məsələn, Avropa irqlərinin təkamül dövründə digər irqlərə görə daha üstün olduğunu irəli sürmüşdür. Ona görə, bu üstün irqlərdən başqaları isə yarı meymun olan ibtidai canlılardır. Digər sözlə ifadə etsək, bəzi irqlər təkamüldə çox irəli getdiyi halda, bəziləri hələ də ataları olan meymunlara yaxın səviyyədədirlər. Darvin gələcəyə dair irqçi təxminlər də irəli sürərək belə yazıb:

"Bəlkə də, əsrlər sürməyəcək qədər yaxın zamanda mədəni insan irqləri vəhşi irqləri tamamilə yer üzündən silib onların yerinə keçəcəklər. Digər tərəfdən insanabənzər meymunlar da ... şübhəsiz, ortadan qalxacaqlar. Beləliklə, insanla ən yaxın qohumları arasındakı boşluq daha da dərinləşəcək".[11]

Darvinin bu irqçi düşüncələri dövrün müstəmləkəçi imperiyaları üçün vəhşiliklərinə don geyindirmək baxımından əhəmiyyətli rol oynadı. Darvinin bu nəzəriyyəsini əsaslandırmaq üçün irəli sürdüyü iddia isə onun məlumatsızlığını göstərməsi baxımından olduqca maraqlı idi. Darvin 1881-ci ildə W.Graham adlı elm adamına yazdığı bir məktubda nəzəriyyəsinə sübut kimi türk millətini nümunə verirdi. Darvinin bu hədyanına görə, türk milləti geridə qalmış millətlər arasında yer alır və buna görə də yaxın gələcəkdə tarixə qarışacaq.

*Təbii seleksiyaya əsaslanan qarşıdurmanın mədəniyyətin irəliləməsinə sizin zənn etdiyinizdən daha çox fayda verdiyini və verməkdə olduğunu sübut edə bilərəm. Düşünün ki, bir neçə əsr əvvəl Avropa* ***türklər*** *tərəfindən işğal ediləndə Avropa millətləri nə qədər risk altında qalmışdı, lakin artıq bu gün Avropanın türklər tərəfindən işğalı bizə gülünc gəlir. Avropa irqləri olaraq bilinən mədəni irqlər həyat mübarizəsində* ***türk barbarlığına*** *qalib gəlmişdir. Dünyanın çox da uzaq olmayan gələcəyinə baxanda belə aşağı irqlərin çoxunun mədəniləşmiş yüksək irqlər tərəfindən yox ediləcəyinə inanıram.*[12]

Şübhəsiz ki, bu iddialar cəfəngiyatdan başqa bir şey deyil. Lakin heç bir elmi əsası olmayan bu düşüncə 19-cu əsr Avropasının müstəmləkəçi dövlətləri tərəfindən qəbul edilmiş və o dövrə hakim olan türk düşmənliyinin dayaq nöqtəsinə çevrilmişdir. Dövrümüzdə dünyanın müxtəlif ölkələrində davam edən irqçi fəaliyyətlərin əsasında Darvinin bu və bənzəri fikirləri var.

Bu gün hələ də Amerikanın müxtəlif əyalətlərindən tez-tez qaradərililərə aid kilsələrin yandırıldığı, məscid və sinaqoqların hədəf alındığı, eləcə də fərqli irqlərin nümayəndələrinə qarşı hücumlar təşkil olunduğu xəbərləri gəlir. Xüsusilə 11 sentyabrda Dünya Ticarət Mərkəzində həyata keçirilən terror hücumundan sonra bu və bənzəri təşkilatların təlqinləri nəticəsində müsəlmanlara qarşı hücumların sayı artmışdır. Fərqli əyalətlərdə müsəlmanlara aid iş yerlərinə, məscidlərə və vəqflərə hücum edilmiş, bundan başqa, müsəlman tələbələr məktəblərə qəbul edilməmiş, müsəlman uşaqlar küçələrdə döyülmüşdür. Ağıl və məntiqlə düşünən hər kəs bu amansız hücumlara görə müsəlman dünyasının, xüsusilə də müsəlman mülki əhalinin və məsum uşaqların məsuliyyət daşımadığını bilir. (11 sentyabr hücumundan sonra İslamı araşdırmağa başlayan bir çox insan ağıllı davranmışdır. Bununla da müsəlman olanların sayı əvvəlki dövrlərə görə dəfələrlə artmışdır). Digər tərəfdən, bu vəziyyət irq və ya inanca əsaslanan nifrətin körüklənməsinin necə təhlükə törədəcəyinin mühüm göstəricisidir.

Klan üzvləri isə belə düşünmür. Hətta onlar 21-ci əsrdə yaşanacağına inandıqları irqlərarası böyük müharibəyə əsrlərdən bəri hazırlıq görürlər.

## Amerikada irqçiliyin meyarları

1870-ci illərdə qurulan Ku Klux Klan Amerikada, xüsusilə Birinci Dünya Müharibəsindən sonra böyük güc qazandı. 1920-ci illərin ortalarında üzvlərinin sayı dörd milyona çatırdı.[13]

"Ağdərili insanı qorumaq üçün mübarizə başladıqda düşmənlərimizi qətlə yetirəcəyik" şüarı ilə yola çıxan Ku Klux Klan düşüncəsinin ideoloji əsası başqa irqçi ideologiyalarda olduğu kimi, ağ irqin təkamül pilləsində ən üstdə yer aldığı, digər irqlərin isə aşağı pillələrdə yerləşdiyi, buna görə də hər cür pis davranışa

layiq olduğu düşüncəsinə dayanır. Bu düşüncənin sahibləri Amerikada olduqca çoxlu saydadır. "National Alliance", "World Church of The Creator" və "Arian Nation" kimi fərqli adlar altında təşkilatlanan bu qrupların ümumi şəkildə Ku Klux Klan çətiri altında olduqlarını demək yanlış deyil.

Aşağıda bir neçəsinə yer verəcəyimiz bu təşkilatlanmaların düşüncələrindəki ən əhəmiyyətli ortaq məxrəc hədəfə çatmaq üçün şiddətə əl atmağa normal yanaşmaq, hətta çox vaxt şiddət və hücumu məcburiyyət kimi qəbul etməkdir.

**Yaradanın Dünya Kilsəsi (World Church of The Creator) təşkilatı**

Yaradanın Dünya Kilsəsi (World Church of The Creator, WCOTC) Amerikada aktiv şəkildə aktlar həyata keçirən və gün keçdikcə daha da böyüyən irqçi təşkilatlardan biridir. Allahın varlığını inkar edən, axirət gününə, cənnət və cəhənnəmə inanmayan bu azğın təşkilatın Amerikadan kənarda da çoxlu tərəfdarı var. Təşkilatın təməl ideologiyasını ağ irqin üstünlüyü düşüncəsi təşkil edir. Bu irqçi fraksiyanın qurucusu olan Ben Klassen öz ideologiyaları barədə təşkilatın rəsmi internet səhifəsində belə yazır:

*Bizim irq üstünlüyünü müdafiə edən inancımızın ana hədəfi ağ irqin yaşamağı, genişlənməyi və daha da inkişaf etməyidir. Dinimiz ağ irqin üzərinə qurulub. Kitabımız "Ağ adamın İncili"dir. Biz ölümdən sonra yaşamağa inanmırıq. Mələk, şeytan, Tanrı və digər şeylər haqqındakı hər şeyi inkar edirik... Qızıl qaydamızı xülasə olaraq belə sadalaya bilərik: Təbiət bizə yalnız öz növümüzün məsuliyyətini daşımağımızı deyir. Palçığa bulaşan başqa heç bir irqi öz növümüz kimi görə bilmərik... Qaradərililər, şübhəsiz ki, nərdivanın ən aşağı pilləsindədirlər, şimpanze və meymunlardan o qədər də üstün deyillər. Digər irqlərin irəliləməyinə kömək edə bilmərik. Kirli irqlərin müvəffəqiyyətli olub çoxalmağı və planetdəki məhdud sahəni doldurmağı üçün yardımçı ola bilmərik... Təbiət yer üzündəki bütün növlərə digər növlərlə həyat mübarizəsində rəqabət apararkən öz qabiliyyətlərinə görə qiymət verib.*[14]

Göründüyü kimi, bu azğın düşüncəyə ardıcılları din adını vermiş və təşkilat üzvləri bu inanca tamamilə bağlanmışdır. Lakin bu azğınlığı din adlandırmaq mümkün deyil. Sosial darvinizmin törəməsi olan bu saxta dində başqa irqlərlə mübarizə ana maddə sayılır. Hətta bu mübarizə "Rahowa" (Racial Holy War – müqəddəs irq müharibəsi) adını şüar götürməklə bunu təşkilatın əh əhəmiyyətli dəyərlərindən birinə çevirmişdir. Ben Klassen başqa bir nitqində ardıcıllarına "Rahowa"nın hansı mənaya gəldiyini açıqlayarkən bir tərəfdən də onları müharibəyə dəvət etməkdən çəkinməmişdir:

*RAHOWA! Bu kəlmə ilə bütün ağ irqin əsas hədəfini və proqramını müəyyən etmiş oluruq. Bu sözün mənası budur: yəhudilərə və dünyanın digər bütün aşağı irqlərinə qarşı siyasi, hərbi, maddi, əxlaqi və dini yöndən savaşmağı qarşımıza məqsəd qoyuruq. Daha doğrusu, bunu dini inancımızın ən əhəmiyyətli və müqəddəs ünsürü olaraq görürük. Bunu qalib gəlinməli və irqlərarası müqəddəs müharibə kimi görürük.* [15]

İrqlər arasında gözlənən tarixi müharibə Klan təşkilatlarının ən önəmli mövzularından biridir. Demək olar ki, bütün toplantılarda bu mövzunun üzərində dayanırlar. Çıxışlarda Klan üzvləri müharibə üçün şövqləndirilir, yazılarda gözlənən böyük müharibəyə işarələr edilir. Klanın yayım vasitələrində sanki əfsanəyə çevrilən bu müharibəyə dair təsvirlərə tez-tez yer verilir. Məsələn, təşkilata məxsus "Knight-Ridder" qəzeti Kolumbiyada təşkil olunan beynəlxalq toplantı barədə bunları yazır:

*Xristian cəngavərlərinin lideri Klu Klux Klan həsrətindədir... küçənin bir az o tərəfində qonşusu ilə birlikdə Klan üzvü heykəli ilə bəzədiyi bağçasını işarə verib: "Bir irq müharibəsi yaxınlaşır, Klan ağ irqin tək qurtuluş ümididir", – deyə çıxış edənlərə səslənir.*[16]

Bir çox irqçi təşkilatda olduğu kimi, "Rahowa"da da güclü təkamül inancı var. Digər irqlərə qarşı düşmənlik etmək və onlara qarşı şiddətdən çəkinməmək təkamül nəzəriyyəsinə olan inancın nəticəsidir. Qarşısındakını heyvan növü kimi görən bir şəxs ona hücum etməkdən, lazım gəldikdə onu öldürməkdən belə çəkinməz.

Təşkilatın Ben Klassendən sonrakı lideri Met Heylin aşağıdakı nitqi onların təkamül inancına nə qədər bağlı olduğunu göstərən nümunələrdən biridir:

*Biz heyvanıq. Bax, məsələ də bundadır. Yalnız düşünə bildiyimiz, danışa bildiyimiz və ya iki ayaq üstündə dura bildiyimiz üçün bu fikri qəbul etmirik. Bu, təbiətin qanunlarına bağlı olmadığımız mənasına gəlmir. Çünki bağlıyıq.*[17]

Bu sözlər təşkilatın özünəməxsus qəribə din anlayışı olduğunun da göstəricisidir. Əlbəttə, bu dinin sevgi və mərhəməti müdafiə edən xristianlıqla heç bir əlaqəsi yoxdur. Onsuz da təşkilat üzvləri və liderləri də bu vəziyyəti açıq dilə gətirməkdən çəkinmirlər. Met Heyl də verdiyi bir müsahibədə öz dinlərinin mahiyyətini belə açıqlayır:

*... Düşmənlərini, kasıb və əzilən insanları sevdiklərini deyən xristianlıq kimi bir dinin yerinə yalnız öz insanlarımızı sevən dinə ehtiyacımız var... Bütün insanların bərabər yaradıldığı fikrindən uzaqlaşmalıyıq... Ağdərili olmayan irqlərə yardımların durdurulmasına inanırıq. Bu yardımlar olmadan ağdərili olmayan irqlərin saylarının sürətlə azaldılacağına inanırıq. Özlərini bəsləyə bilməzlər. Mükəmməl bir dünyanın yalnız ağ insanlarla, dünyadakı ağdərili irqlərlə mümkün olacağına inanırıq. Dərisi ağ olmayan irqlər getdikdə və ağ olan irqlər birləşdikdə ağdərili insanlarımız sülh və rifah içində olacaq...*[18]

Lakin irqi üstünlüyü müdafiə edənlər və sahib olduqları xüsusiyyətlərə görə üstün olduqlarını zənn edənlər əhəmiyyətli bir həqiqəti nəzərdən qaçırırlar. Bu dəyərlərin heç biri qalıcı deyil. Hər insan bir gün gec-tez öləcək və sahib olduğu hər şeyi bu dünyada qoyub Rəbbimizin qarşısında hesab verəcək. O gün heç kim heç kimə fayda verə bilməyəcək. Heç kimin irqi, rəngi və soyu əhəmiyyət kəsb etməyəcək. Dünyada ikən sahib olduğu heç bir şey ona fayda verməyəcək və heç kim etdiklərinə görə bəhanə irəli sürə bilməyəcək. Allah "Muminun" surəsində belə buyurur:

**Sur üfürüləcəyi gün onların aralarında qohumluq əlaqəsi olmayacaq və onlar bir-birindən hal-əhval tutmayacaqlar. (Muminun surəsi, 101)**

### Klan maddələri

Aşağıdakı maddələr 14 yanvar 2001 tarixində Klan iclaslarının birində Met Heylin çıxışından götürülmüşdür:

İrqlərin bərabər olduğunu demək öz irqimizə qarşı cinayət işləmək mənasına gəlir.

İrqlərin qaynayıb-qarışmasından, irqlərarası evliliklərdən və ağdərili olmayanların ölkəmizə köçməsindən nifrət edirik.

İrqlərarası evliliyə yol vermək irqimizə xəyanət etməkdir.

İnsan Haqları hərəkatları bizim üçün yanlışdır. Mənfəətlərimizə ziddir.

Ağ irq intellektual cəhətdən digər irqlərdən üstündür.

Sıra bizə gəldikdə, iqtidar bizim əlimizdə olduqda, dünyanı istədiyimiz kimi formalaşdırmağa başladıqda irqin ən yaxşısını yaradacağıq. Gələcək yalnız ağlara aid torpağımızın olduğu dövr olacaq. Digər irqləri torpaqlarımızdan qovacağıq. Qanun çərçivəsində zorla gəmilərə doldurulub torpaqlarımızdan çıxarılacaqlar. Qanun bu olacaq...

Ağ olmayanlar bizim üçün əhəmiyyətli deyil. Qan gölündə yatsalar belə, bizim üçün əhəmiyyəti yoxdur. Bizi maraqlandıran öz irqimizdir.

İrqləri fərqləndirən şey beyinləridir. Hər irqin fərqli kəllə forması və beyin həcmi var.

Seriyalı qatillərin niyə ağların arasından çıxdığı soruşulursa... Ağ insanlar bir şeyi etməmişdən əvvəl plan qururlar. Ağlar düşünürlər. Qaraların işlədiyi cinayətlərin çoxu ibtidaidir. Ağlar işləyəcəyi cinayəti öncədən düşünürlər. Ağlar belə cinayətlər işləyirlər, çünki belə cinayətlər plan qurmaq qabiliyyətini labüd edir.[19]

Bu maddələr bir Klan üzvünün düşüncə formasını göstərmək baxımından diqqətəlayiqdir. Bu düşüncəli insanlar üçün irq üstünlüyü adından vəhşilik törətmək məqbul qarşılanır.

**Beynəlxalq İttifaq (National Alliance) Təşkilatı**

Amerikada gənclər arasında böyük güc qazanan faşist təşkilatlardan biri də Beynəlxalq İttifaq (National Alliance) təşkilatıdır. Təşkilat ilk dəfə 1970-ci ildə gənc fizika professoru dr.Uilyam Pirs tərəfindən Oreqon Universitetində "Beynəlxalq Gənclik Birliyi" adı altında qurulmuşdu. Ən böyük xüsusiyyəti kollec və universitetləri hədəf alması idi. Üzv olmaq üçün yaş məhdudiyyəti 6-30 yaş arası idi. Lakin daha sonra bu yaş məhdudiyyəti ortadan qaldırıldı və Beynəlxalq İttifaq adı ilə yeni təşkilat quruldu. Bu təşkilatın əsas məqsədlərindən biri gənclərin irqçi düşüncə ilə yetişdirilməsidir. Beləliklə, irqi üstünlüyünü əsas tutan nəsillərin yetişməsi təmin olunacaqdı. Başqa irqçi təşkilatlar kimi Beynəlxalq İttifaq da bütün şərtlərdə ağ irqin üstünlüyünü qorumağı planlaşdırırdı. Dr. Pirs 1997-ci ildə verdiyi bir müsahibədə bu hədəfdən belə bəhs etmişdi:

Müvəffəqiyyətli olmaq üçün nəyin bahasına olsa da, özümüzü qaradərililərdən və digər ağ irqlərdən tamamilə ayırmalıyıq, həmçinin onlardan uzaq durmalıyıq... Onlardan qurtulmalıyıq.[20]

Əlbəttə, Beynəlxalq İttifaq Təşkilatı ilə digər faşist təşkilatlar arasındakı tək bənzərlik bu deyil. Təkamül nəzəriyyəsinə olan inanc başqalarında olduğu kimi, Beynəlxalq İttifaqda da ön plandadır. Təşkilat üzvləri hər nə qədər dindar olduqlarını iddia etsələr də, verdikləri açıqlamalar inanclarının dinə tamamilə zidd olduğunu göstərir. Çox vaxt özləri də bu həqiqəti dilə gətirirlər:

Özümüzü təbiət qanunlarına görə təkamülləşən ətrafımızdakı unitar dünyaya inteqrasiya olunmuş görürük. Sadə dillə desək, yalnız bir həqiqət var və bu, təbiətdir: bizlər təbiətin bir parçasıyıq və təbiətin qanunlarına tabeyik. Biz bu qanunlar çərçivəsində öz taleyimizi müəyyən edirik ... Başqa sözlə desək, seçmək imkanına sahib olduğumuz hər şeyə görə özümüz məsuliyyət daşıyırıq, xüsusilə çevrəmizin və irqimizin taleyi üçün. Bu düşüncə semit düşüncə ilə təzad təşkil edir.[21]

Göründüyü kimi, zamanla faşist və irqçi təşkilatların danışıqlarında dini terminlərdən istifadə etmələri və ya özlərini dindar göstərmələri yalnız taktikadır. Müxtəlif sosioloqlar və akademiklər də araşdırmalarında buna çox diqqət yetirirlər. Həmin akademiklərdən biri Bostonda "Northeastern" Universitetinin şiddət və sosial qarşıdurmalar kafedrasının müdiri Cek Levindir. Levin deyir ki, təşkilat Müqəddəs Kitaba dair bəzi ifadələr işlətməklə öz aqressiv hərəkətlərinə dini don geyindirməyə çalışır.[22]

## ŞİDDƏT VƏ TERROR TƏRƏFDARI OLAN BİR İDEOLOGİYA: NEONASİZM

Klu Klux Klan çətiri altında toplaşan irqçi təşkilatlar Amerikada irqçiliyi və əcnəbi düşmənliyini təmsil edirlər, Avropada isə bu işi neonasistlər öz öhdələrinə götürüblər. Əvvəllər İngiltərədə skinhedlərdən başlayan Avropa irqçiliyi 1990-cı illərdə nasist cərəyanına çevrildi. Özlərini "neonasistlər" adlandıran bu təşkilatların əsas xüsusiyyəti odur ki, onlar da Klu Klux Klan kimi ağ irqin üstünlüyünü müdafiə edir və kasıb məhəllələrdə yaşayanlara qarşı hücumlar təşkil edirdilər.

Son 10 ildə neonasist cərəyanı güclənməyə və təsir dairəsini genişləndirməyə davam etmişdir. Bu təşkilatlar 6 qitədə və 33 ölkədə aktiv vəziyyətdədirlər. Üzvlərinin sayı isə 70 minə çatır. Neonasistlər hər ölkədə özlərinə fərqli hədəflər seçiblər. Aparılan araşdırmalar onların Almaniyada türkləri, Macarıstan, Slovakiya və Çex Respublikasında qaraçıları, İngiltərədə asiyalıları, Fransada şimali afrikalıları və Braziliyada şimal-şərqliləri hədəf seçdiyini göstərir. Şiddət, kin, nifrət, təhdid, zərər vermək neonasistlərin başlıca xüsusiyyətlərindəndir. Almaniyanın rəsmi statistikasına görə, 1999-cu ildə təkcə Almaniyada irqçilik və əcnəbi düşmənliyindən qaynaqlanan 10037 hadisə qeydə alınmışdır. 2000-ci ildə irqçilik zəminində baş vermiş insidentlərin sayı on mindən çoxdur. İngiltərədə isə təkcə aprel və sentyabr ayları arasında irqçilik zəminində baş verən cinayətlərin sayı 10982 olmuşdur. Bu cinayətlərin yarısının qorxutmaq, çəkindirmək və gözdağı vermək şəklində olduğu müəyyən edilmişdir. Öldürmək, yaralamaq, ev və iş yerlərinə hücum etmək kimi aktlar isə bu cinayət siyahısının digər yarısını təşkil edir.

90-cı illərdə böyüyən neonasist cərəyanının fikir ataları arasında radikal sağçılığı müdafiə edən Luis Bim və Uilyam Pirs adlı amerikalı ideoloqların xüsusi yeri var. Onların ortaya qoyduğu "lidersiz müqavimət" və "ağ inqilab" anlayışları bu gün bütün neonasist hərəkatına hakim vəziyyətdədir. Dövrümüzdə müxtəlif ölkələrdə yaşanan bombalamaq, qundaqlamaq və iş yerlərini dağıtmaq kimi fərdi terror əməllərinin təməlində də "lidersiz müqavimət" anlayışı durur. Bunun əsasında neonasistlər fəaliyyətlərini ya fərdi olaraq, ya da kiçik dəstələr şəklində davam etdirirlər.

Dr.Uilam Pirs tərəfindən qələmə alınan "*Hunter*" və "*The Turner Diaries*" adlı kitablar neonasist terrorunun ana qaynaqları kimi qəbul edilir. Fransa Milliyyətçi Sosialist Hərəkatının həmin bu kitabları əsas götürüb hazırladığı "Aryan İnqilabına Praktik Bələdçi" ("*A Practical Guide to Aryan Revolution*") adlı kitabçada isə bir neonasistin ehtiyacı olan hər cür məlumat vardır. "Gizli fəaliyyət metodları, qaçıb gizlənmək, sui-qəsd, bombalamaq, ziyankarlıq, irqi müharibə, inqilabi prosesin yaradılması, Aryan Azadlıq Hərəkatı əsgərlərinin davranışları" kimi başlıqlardan ibarət bu kitabça sözün əsil mənasında bir terrorçunun əl kitabçasıdır.[23]

Bu qrupların içində aktiv şəkildə iştirak etməsələr də, faşizmi müdafiə edən və bu kitablardan təsirlənən bir çox insan var. Məsələn, "Ternerin Gündəliyi" ("*The Turner Diaries*") adlı kitabda bir yeraltı təşkilatın dövlətin qarşısında necə təşkilatlandığından və hansı fəaliyyətləri göstərdiyindən bəhs edilir. 1998-ci ildə Texasda bir zəncini yük maşınının arxasına bağlamaqla sürükləyib öldürən Con Uilyam King adlı şəxsin məhkəmədə bu cinayətini "Ternerin Gündəliyi"nə əsaslandırdığını deməsi bu təsirin miqyasını göstərir.

1993-cü ildə Oklahamada Timoti Makvey tərəfindən həyata keçirilən bombardmandan sonra diqqətlər bu dəfə neonasist Uilyam Pirsin başqa kitabı olan "Ovçu"ya ("Hunter") yönəldi. Çünki Pirs həmin kitabında təkbaşına hərəkət edən bombardmançıdan bəhs edirdi. Kitabın qəhrəmanı hər hansı bir dəstənin və ya təşkilatın dəstəyi olmadan eyni Timoti Makvey kimi öz istəyi ilə qəsdən hücum təşkil edirdi.[24]

**Oklahamanın bombalı hücumçusu da neonasist idi**

Amerika xalqının 2001-ci il 11 sentyabr tarixli hücumdan əvvəl şahid olduğu ən böyük terror hadisəsi Timoti Makvey tərəfindən Oklahamadakı Federal Binaya edilən bombalı hücumdur. Bu hücumdan sonra uşaqlar da daxil olmaqla, 168 nəfər həyatını itirmişdi. Hadisənin maraqlı yönü isə Makveyin həm azğın təriqət pərəstişkarı, həm də neonasist olması idi.

Makvey bu qətliamı 1993-cü ildə fermalarında yanaraq ölən Devid Koreş və ardıcıllarının intiqamını almaq üçün törətdiyini demişdi. Makveyə görə, Koreş və təriqət üzvləri özlərini yandırmamışdılar, Amerika dövləti tərəfindən yandırılmışdılar. Buna görə də hadisənin intiqamını Amerika dövlətindən almağa qərar vermiş, Federal Binaya bombalarla hücum edərək dövlət işçilərini öldürməyi planlamışdı. Devid Koreş təriqətinin intihar hadisəsindən tam iki il sonra - hadisənin il dönümündə partlayıcı ilə dolu yük maşınını binanın önündə qoyub soyuqqanlılıqla baş verənləri izləmişdi. Hücum əsnasında Terri Nikols adlı neonasist dostu da Makveyə kömək etmişdi. Terri Nikols ilə birlikdə hadisədən qabaq Makveyə dəstək olan, partlayıcı maddələri tapmaqda ona yardım edən və onun belə hücumu planladığını bilənlərin ortaq xüsusiyyəti isə neonasist olmaları idi.

Makvey edam edilməmişdən əvvəl "*The Buffalo News*" adlı qəzetə göndərdiyi məktubunda etdiklərindən peşman olmadığını və dövlətə qarşı apardığı mübarizədə bombalamağın ən doğru taktika olduğunu demişdi. Tamamilə xəstə zehniyyətin məhsulu olan bu hücum bizə bir daha bu cür cərəyanların insanlarda hansı təxribatları yaratdığını və cəmiyyətlərə necə böyük bəlalar gətirdiyini göstərməsi baxımından ibrətvericidir.[25]

Bura kimi müxtəlif nümunələri ilə araşdırdığımız kimi, dəccali sistemdə insanlar arasında irq, dil və cinsiyyətə görə ayrı-seçkilik edilməsi və digər irqlərin vəhşi üsullarla qətl edilməsi məqbul qarşılanır. Bundan başqa, bu ayrı-seçkilik cəmiyyətlər arasında münaqişə və müharibələrə səbəb olan bir növ isteriyaya döndərilir. İnsanlar yalnız dil, din və irqləri fərqli olduğu üçün hücumlara məruz qalır və müxtəlif təcavüzlərə uğrayırlar. Bunun səbəblərindən biri Quranda da bildirildiyi kimi, şeytanın insanlara millətçiliyi gözəl göstərməsidir. Dövrümüzdə terror əməllərini təşviq edən və ya birbaşa gerçəkləşdirən qruplaşmaların bir

qismi bu təhriklərə qapılıb fəaliyyətlərini irqçi terminlərə əsaslandırırlar. Bu irqçi təhriklərin İslama zidd olduğu Quran ayəsində açıq şəkildə bildirilir:

**Kafirlər öz qəlbində cahiliyyənin hiddətli soy qoruyuculuğuna qapıldıqları zaman Allah Öz Elçisinə və möminlərə rahatlıq nazil etdi və onlara təqva sözünü vacib buyurdu. Onların buna daha çox haqqı var idi və ona layiq idilər. Allah hər şeyi bilir. (Fəth surəsi, 26)**

İnsanlar bir-biriləri ilə düşmən olmaq üçün deyil, tanış olub dost olmaq, yaxşı əlaqələr qurmaq üçün fərqli xalqlar şəklində yaradılıblar. Allah dəccalın terror mühiti yaratmaq üçün insanlar arasında təşviq etdiyi üstün irq ideologiyasının yanlışlığını Quranda açıqlamışdır. Cəmiyyətləri, xalqları və ya insanları dəyərli edən ancaq onların gözəl əxlaqıdır. İnsanların hansı irqdən olduğunun, yaxud hansı dildə danışdığının heç bir əhəmiyyəti yoxdur. Bu dəyərlərə görə üstün olmağa çalışmaq və digər cəmiyyətlərə düşmənlik bəsləmək dəccal ideologiyasının məhsuludur. Allah insanlar arasındakı soy fərqliliyinin dostluq və ünsiyyət vasitəsi olduğunu, üstünlüyün yalnız təqvaya, yəni iman və əxlaqa görə olduğunu belə xəbər verir:

**Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah biləndir, xəbərdardır. (Hücurat surəsi, 13)**

## ŞEYTANIN TERRORU:
## SATANİZM

Satanizm şiddət və vəhşiliyi dini ayinə çevirən azğın ideologiyadır. Şeytanı özlərinə ilah seçən satanistlər insanlıqdan uzaq əməlləri və qanlı cinayətləri ibadət kimi yerinə yetirirlər.

Çox adam elə zənn edir ki, satanizm yalnız psixoloji yöndən gənclər arasında yayılan mistik cərəyandır. Bəziləri elə düşünə bilər ki, onlar baxdıqları filmlərdən təsirlənən və qəribə rituallara sahib olan ağılsız adamlardır. Satanistlərin ürküdücü ayinlərinin olduğu doğrudur. Lakin çoxları bu həqiqəti bilmir: satanizm keçmişi 1800-cü illərə qədər gedib çıxan materialist və ateist ideologiyadır. Bu ideologiyanın dünya miqyasında çoxlu ardıcılları var.

Satanizmin əsas xüsusiyyəti odur ki, hər cür dini dəyəri rədd edir və şeytanı özünə ilah seçərək cəhənnəmi bir növ qurtuluş yeri kimi görür. Satanizmə görə, insan heç bir şeyə qarşı məsuliyyət daşımır. Tək vəzifəsi nəfsinin istəklərini yerinə yetirməsidir. Bu vəziyyətdə əgər nəfsi insana əsəbiləşməyi, kin saxlamağı, intiqam almağı, yalan danışmağı, oğruluq etməyi, zərər verməyi və ya öldürməyi əmr edirsə, bunu etmək üçün heç bir problem yoxdur. Satanizm bunu müdafiə edərkən belə bir məntiq irəli sürür ki, nəfsin istəklərinin əngəllənməsi səmimiyyətsizlikdir. Bu azğın inanca görə, nəfsi insana qarşısındakı şəxsi öldürməyi deyirsə və insan bunu etmirsə, deməli, dürüst davranmır.

Bütün insanların təqdir etdiyi və gözəl əxlaqi xüsusiyyət kimi gördüyü sevgi, mərhəmət, səbir və bağışlamaq kimi məziyyətlərdən satanistlərdən nifrət edirlər. Satanistlərə görə, əslində, insan kin, qəzəb, intiqam kimi hislərdə sərhəd tanımamalıdır. Satanizmin əsas təlim kitabı kimi qəbul edilən "Şeytani İncil"in (Satanic Bible) beşinci maddəsində İncildə verilən "üzünə sillə vurana digər yanağını çevir" prinsipinə istinadən deyilir ki, şeytan digər yanağını çevirməyin əvəzinə intiqam almağı təmsil edir. Eyni kitabın başqa maddəsində belə bir təlimat qeyd edilir ki, düşmənlərinizdən çox nifrət edin və əgər bir adam sizə sillə vurursa, siz də ona sillə vurun.[26]

Məlumdur ki, belə mühitdə xaos və qarışıqlıq əmələ gələr. İnsanların yaxşını pisdən ayırmaq üçün iradə göstərmədiyi cəmiyyətdə hüzur, sülh və mərhəmətdən danışmaq olmaz. Həmin cəmiyyətlərdə əsəbiləşən bir adam qəzəbini boğmaq əvəzinə, intiqam almağa çalışar. Yaxud da kasıb bir adam səbir göstərərək halal yolla pul qazanmaq yerinə, oğurluq kimi qeyri-qanuni işlərə əl atar. Elə satanizm də bunu təşviq edir.

Satanizmin irəli sürdüyü cəmiyyət quruluşu qanun-qayda tanımır. Əsas məqsəd odur ki, nəfs bütün eqoist istəklərini və pisliklərini həyata keçirsin. Modern satanizmin banisi kimi tanınan Anton Lavey "Satanic

Bible" adlı əsərində satanizmin əsas prinsiplərindən bəhs edərkən davamçılarına pisliyi istədikləri kimi yaşamağı və yaymağı təlqin edir. Hətta Lavey bir müsahibəsində deyir ki, qanunlar pozulmaq üçün yazılıb, küçədə birini soymaq heç də yanlış hərəkət deyil.[27] Bundan başqa, qanunları pozmağı həyatın ayrılmaz hissəsi kimi görürlər.

Satanizmin qanun tanımamağı təkcə bununla bitmir. Bir satanist insan yalnız özünə və ətrafına zərər verməklə kifayətlənməyib, bütün insanlığa düşmənlik bəsləyir. Satanizmə görə, şiddət təbiətin özündə var və qaçılmazdır. Bu azğın inanca görə, təbiətdəki şiddətin insanlar arasında yaşanmasında heç bir problem yoxdur. İnsanın şiddətə mane olması təbiətinə ziddir. İnsan bir gün mütləq şiddətə əl atır, o zaman buna mane olmaq məntiqli deyil.

Göründüyü kimi, satanizm son dərəcə azğın inanclarla doludur, bu da insanları aqressiv olmağa, cinayət işləməyə və hətta qətliam törətməyə yönəldir. Xüsusilə Amerikada akademiklər təsbit ediblər ki, beynəlxalq terrorun əsası satanizmdir və buna qarşı ciddi mübarizə aparmaq lazımdır. Həmin akademiklərdən biri Denver Universitetinin professorlarından olan Karl Raşkedir. Raşke mövzunun əhəmiyyətindən söz açaraq deyir ki, satanik ideologiyanın beynəlxalq terrorun əsası olduğu barədə ciddi çalışmalar aparırıq.[28] Satanizmə qarşı aparılan mübarizədə ən mühüm addımın "onların işsiz-gücsüz qruplar" olduqlarını fikrindən əl çəkmək olduğunu deyən Raşke qeyd edir ki, satanistlərin törətdikləri cinayətlər araşdırıldıqda bu ideologiyanın nə qədər böyük bəla olduğu anlaşılır.[29]

Şübhəsiz ki, belə bir cərəyana qarşı ən əhəmiyyətli mübarizə fikri yöndədir. Buna görə də satanizmin hansı ideologiyaları əsas götürdüyünü başa düşmək lazımdır.

**Satanizmin ideoloji əsası darvinizmdir**

Satanistlər kitab və jurnallarında, həmçinin internet səhifələrində insanların təkmilləşmiş heyvan olmasından, həyatın əsil mənasının mübarizə aparmaqdan, bu mübarizədə güclülərin ayaqda qalmasından bəhs edirlər. Bu vəziyyət satanistlərin düşüncələrinin ideoloji əsasının darvinizm olduğuna dair önəmli dəlildir. Belə ki, bir çox satanistin özü bun açıq şəkildə dilə gətirməkdən çəkinmir. "Satanizmin təsviri" (A description of satanism) adlı yazıda satanist yazıçı ideologiyasını belə açıqlayır:

"...Öncəliklə, bütün insanlar sosiallaşmış heyvanlardır... Bütün insanlar və heyvanlar ortaq bioloji keçmişə malikdir. Satanizm insanların inkişaf etmiş heyvandan başqa bir şey olmadığını müdafiə edir. Bizim başqalarından üstünlüyümüz yoxdur. Biz yalnız təkmilləşib ayaqda qalmaq şansına sahib adamlarıq..."[30]

"Şeytan kilsəsi" nəşrlərindən olan başqa bir satanist qaynaq isə insanların təkmilləşmiş heyvan olduqlarına inandıqlarını belə bildirirlər:

"Satanizm insanı bir növ heyvan olaraq gördüyünə görə (keçmiş mədəniyyətlərdə bu həqiqətin fərqində olan və cəmiyyətlərində bunu dilə gətirənlər vardı) bu bədii və fəlsəfi ifadələri tapıb ortaya çıxaracağıq və bunları bugünkü oyanışımızın mənbəyi kimi görəcəyik.[31]

Göründüyü kimi, satanizm Darvinin insanların heyvanlardan törədiyini önə sürən nəzəriyyəsini ideoloji "oyanış"ın mənbəyi kimi görür. Anton Laveyin verdiyi və "MF Magazine" adlı jurnalda yayımlanan bir müsahibəsinin giriş hissəsində darvinizm və satanizm arasındakı əlaqə belə xarakterizə olunur:

"Anton Lavey 1960-cı illərin sonunda hippilikdən xristianlığın monoton əxlaqi dəyərlərindən sıxılan fərdlər üçün sosial darvinizm ideologiyasını və pozitiv düşüncəni başa düşülən formaya salıb yeni yol əmələ gətirmişdi".[32]

Şeytan kilsəsinin keşişlərindən olan Piter Hovard Qilmor isə bu azğın dini belə təsvir edir:

"...İndi isə bunun yerinə modern satanizmin nə olduğuna baxaq: qabiliyyətli olanların axmaqların üzərində təkrar hakim olacağı, ədalətsizliyin yerini ədalətin tutacağı, iki min ildən bəri bütün insanların bərabər olduğu yalanını irəli sürənlərin tamamilə rədd edildiyi amansız dini elita və sosial darvinist düşüncə".[33]

Əlbəttə, yuxarıdakı sətirlərdə verilmiş ədalət anlayışı bizim başa düşdüyümüz kimi, haqq və bərabərlik prinsipi üzərinə inşa edilən ədalət deyil. Bu ədalət şeytani ədalət anlayışıdır və sonrakı sətirlərdən də anlaşıldığı kimi, özlərini digərlərindən üstün görən insanlara hər cür səlahiyyət verməyi nəzərdə tutan ədalətdir.

Satanizmin başda faşizm olmaqla yalnız qərb cəmiyyətlərini üstün görən sosial darvinist anlayışı, bir çox irqçi və şovinist cərəyanla paralellik təşkil etməyinə, hətta çox vaxt bu cərəyanlarla əlbir hərəkət etməyinə səbəb olmuşdur. Hitlerin milliyyətçi sosialistləri və Mussolinin qaraköynəkliləri arasında satanizmə inanan çox adama rast gəlmək olar. Anton Lavey bu əlbirliyi belə izah edir:

"Bu müqəddəs olmayan bir ittifaqdır. Bu düşüncəni müdafiə edən fərqli insanlar keçmişdə bizimlə razılaşma əldə etdilər. Hekayələri, işıq və xoreoqrafiyaları ilə milyonlarla insanı yönləndirən Almaniya Milliyyətçi Sosialist Partiyasının antixristian gücü satanistlərə səmimi şəkildə bağlı idi".[34]

Bu cərəyanlarla satanizm arasındakı ən əhəmiyyətli ortaq məxrəc isə darvinizmdir. Bütün bu azğın ideologiyaların təməlində yerləşən sosial darvinizmi satanistlər belə müdafiə edirlər:

"Güclü olanın ayaqda qalması prinsipi fərdin həyatda qalıb-qalmamağından tutmuş müstəqil şəkildə ayaqda dura bilməyən millətlərin ortadan qalxmağına qədər cəmiyyətin hər səviyyəsinə tətbiq edilə bilər... Zəiflər sosial darvinizmin nəticələrini yaşamağa başladıqca dünyanın nüfuzunda sistemli şəkildə azalma baş verəcək. Çünki təbiət hər zaman uşaqlarını bir yandan gücləndirir və bir yandan da təmizləyir. Biz həqiqətlərdən bəhs edirik və bunu utopiyaya döndərmək fikrində deyilik".[35]

Satanistlərin sosial darvinizmə olan bağlılıqlarının başqa göstəricisi də faşizmin məhsulu olan Yevgenika nəzəriyyəsini hərarətlə müdafiə etmələridir. Şikəst və xəstə insanların cəmiyyətdən təmizlənməsini, sağlam fərdlərin cinsi yolla çoxaldılmasını irəli sürən Yevgenika nəzəriyyəsi xüsusilə nasist Almaniyasında tətbiq edilmişdir. Yevgenika nəzəriyyəsinə görə, sağlam heyvanları bir-biriləri ilə cütləşdirməklə yaxşı heyvan cinsləri əmələ gətirildiyi kimi, insan irqi də həmin formada islah edilə bilər. İnsan irqinin islah edilməyinə əngəl olan ünsürlər isə (şikəstlər, xəstələr, ruhi xəstələr və s.) cəmiyyətdən təmizlənməlidir. Beləliklə, nasist Almaniyasında on minlərlə irsi xəstəliyi və ruhi problemləri olan adam amansız şəkildə öldürülmüşdür.

Satanizm də eyni qorxunc cinayətləri müdafiə edir. Satanistlərin yevgenika haqqında düşüncələri öz qaynaqlarında belə qeyd olunur:

Satanistlər bundan başqa, Yevgenika nəzəriyyəsinin tətbiq olunması ilə təbiət qanunlarının inkişaf etdirilməsi yollarını axtarırlar... Bu törəmək qabiliyyəti olan insanları dəstəkləməklə gen hovuzunu insanlığın daha sürətli irəliləməsini təmin edəcək şəkildə inkişaf etdirmə cəhdidir. Bu, dünya miqyasında ümumi şəkildə tətbiq olunan üsuldur... Genetik kodlar açılana qədər və soyumuzu davam etdirəcək insanları seçənə qədər satanistlər ən yaxşıların ən yaxşılarla birləşməsini müdafiə edəcəklər.[36]

**Satanizmin azğın ayinləri**

Satanizm deyildikdə bir çoxlarının ağlına onların qara magiya ayinləri və bu ayinlər zamanı yaşanan qorxunc vəhşiliklər gəlir. Lakin insanların bir qismi bunların yalnız qorxu filmlərində baş verdiyini, həqiqi həyatda belə hadisələrin yaşanmadığını zənn edir. Halbuki filmlərdə gördüyümüz səhnələr satanist ayinlərin ayrılmaz hissəsidir.

Bu ayinlərin əsas məqsədi şeytanla əlaqə qurmaq və onun "nəsihət"lərini dinləməkdir. Bunun üçün xüsusi yerlər hazırlanır. Satanizmdə bu şeytani ritualların nə qədər əhəmiyyətli yer tutduğunu görmək üçün satanistlərin hazırladığı kitablara və internet səhifələrinə qısa nəzər yetirmək kifayətdir. Belə yayımların ortaq xüsusiyyəti, əsasən, qaranlıq və qanlı görüntülərlə şeytani ayinləri təbliğ etməkdir. 18 yaşından kiçik satanistlərə müxtəlif öyüdlər verən məşhur satanist internet saytlarının birində həmin ayinlərin satanizmin əsaslarından olduğu bildirilir. Kütləvi halda ayin keçirməyən gənclərin təkbaşına olsalar belə, mütləq ayin keçirməli olduqlarından bəhs edilir.

Şeytanı özlərinə rəhbər götürən cəmiyyətdə hər cür azğınlıq, əxlaqsızlıq və vəhşilik adi qarşılanır. Satanistlər üçün bunlar şeytanın onlara ilhamıdır və bu əmrlər mütləq yerinə yetirilməlidir. Bu əmrlərə itaət edən satanistlər cinsi sapqınlıqlar törədir, insanlara və heyvanlara işgəncə verir, hətta öldürdükləri canlının və insanın qanını belə içirlər. Dünyanın bir çox ölkəsində satanist olduğunu deyən gənclər bir yerə yığışıb narkotik maddə qəbul edir, hər cür əxlaqsızlıq edir və çox vaxt şeytan üçün dostlarından birini öldürürlər.

Satanistlərin ayinlərində qan tökməyə xüsusi əhəmiyyət vermələri şeytanın insanlıq üzərindəki planının simvolik ifadəsidir. Şeytan böyük nifrətlə baxdığı insan soyuna əlindən gəldiyi qədər acı vermək istəyir. Buna görə də dünyada qan tökməyi özünə məqsəd seçmişdir. Əvvəlki səhifələrdə haqqında danışdığımız faşizm, irqçilik və kommunizm kimi dəccali ideologiyalar şeytanın bu məqsədinə xidmət edir. Bu və bənzəri din düşməni olan ideologiyaların tərəfdarları tərəfindən törədilən bütün müharibə, qətliam, cinayət və terror aktları şeytanın qan tökmək istəyini təmin edən satanist ayinlərdir.

Özlərini "satanist" elan edənlər qan tökməyi açıq mərasimlərlə tətbiq edirlər. Yer üzündə terror və anarxiyanı körükləyənlər isə eynisini üstüörtülü və daha əhatəli şəkildə həyata keçirirlər. Qısası, şeytan və onun yer üzündəki sistemi olan dəccaliyyət aldatdığı insanlardan istifadə edərək yer üzünü sanki kütləvi qırğın məkanına çevirməyə çalışır.

## Satanizm təməlindən məğlub olmağa məhkum ideologiyadır

Satanizmin təhlükəsi ilə bağlı bir şeyə diqqət etmək lazımdır. Onlardan saylarını soruşduqda çox olduqlarını deyirlər. Həqiqətən də, fərqində belə olmadan satanizmi yaşayan çoxlu sayda insanlar var. Çünki insan vicdanının səsini dinləməyib gözəl əxlaqı yaşamırsa, deməli, nəfsinə və şeytanın əmirlərinə tabedir. Satanistlərin bu günə qədər səbəb olduqları bəlalar nəzərə alındıqda belə insanlardan ibarət cəmiyyətin aqibətinin nə qədər acı olacağı məlumdur.

Satanizmin təməl fikri olan insanın bir növ heyvan olması iddiası isə tamamilə cəfəngiyatdan ibarətdir. İnsan kor təsadüflər nəticəsində ortaya çıxan varlıq deyil. Bütün kainatdakı nizam və ehtişam kimi insanı da yaradan üstün və hər cür nöqsandan münəzzəh olan Allahdır. Allah insanları düşünüb dərk edən, yaxşını pisdən ayırmağı bacaran və Allaha qarşısında məsuliyyət daşıyan varlıqlar kimi yaratmışdır. Hər insanın nəfsi pisliyə təşviq etdiyi kimi, vicdanı da pislikdən çəkinməyi və qorunmağı əmr edir. İnsan isə nəfsinin yox, vicdanının səsini dinləməli və Allahın razı olduğu əxlaqı göstərməlidir. İnsanın göstərdiyi gözəl əxlaq həm özünün və cəmiyyətinin rahat yaşamağını, həm də axirətdə Allahın izni ilə ən gözəl qarşılığı almağını təmin edəcək.

Bir şeyi yadda saxlamaq lazımdır ki, şeytanın insanlara bəzəkli göstərdiyi həyat böyük yalandır. Şeytan insanlara dünya həyatında müxtəlif vədlər verə və onları doğru yoldan azdırmağa çalışa bilər. Onun insanları dəvət etdiyi yol fəlakətdən başqa bir şey deyil. Çünki şeytan və onun davamçıları təməldən məğlub olmağa məhkumdur. Quranda bu həqiqəti bizə xəbər verən ayələrdən bəziləri belədir:

**Onlar ... yalnız üsyankar şeytana sitayiş edirlər. Allah (şeytana) lənət etdi. O isə dedi: "Mən Sənin qullarından müəyyən bir qismini hökmən ələ alacağam. Mən onları mütləq azdıracaq və xülyalara salacağam; onlara mal-qaranın qulaqlarını kəsməyi buyuracaq və Allahın yaratdıqlarına dəyişiklik verməyi əmr edəcəyəm". Allahı qoyub şeytanı özünə himayədar tutan şəxs açıq-aşkar ziyana uğramışdır. (Nisa surəsi, 117-119)**

## ŞİDDƏTİN O BİRİ ÜZÜ:
## AZĞIN TƏRİQƏTLƏR

Əvvəlki hissələrdə başda Amerika olmaqla dünyanın bir çox ölkəsində azğın düşüncələrə sahib batil təriqətlərdən və bunların müxtəlif terror aktları törətdiklərindən bəhs etdik. Bu mistik qruplaşmalar ictimai nizamı pozur, üzvlərini şiddətə təşviq edir, hətta cinayət və intiharlara belə sürükləyirlər. Bunların arasında ən

məşhurları özlərini kütləvi şəkildə yandıran Devid Koreş və davamçıları, birlikdə intihar edən “Heavens Gate” və Yaponiya metrosuna sarin qazı atıb yüzlərlə insanın zərər görməsinə səbəb olan “Aum Shinrikyo” təriqətləridir.

Bunlardan başqa, xüsusilə Amerikada, demək olar ki, hər gün belə qruplaşmaların hücumlarına və fərdi intiharlarına rast gəlinir. Qrup şəklində intihar edənlərin bu günə qədər sayca ən çox olanı isə “The Peoples Temple” təriqətidir.

1970-ci ilin sonunda qurulan və başçısı Cim Cons olan bu təriqət cəmiyyətdən uzaq bir yerdə – meşəlik ərazidə yaşayırdı. 1978-ci ildə konqres üzvü Leo Rayn gələn şikayətlərdən dolayı araşdırma üçün Constaun adlı həmin bölgəni ziyarət etdi. Rayn Constaundan uzaqlaşan zaman təriqətdən ayrılmaq istəyən 18 nəfər də ona qoşulmaq istədikdə qanlı hadisə baş verdi. Təriqət üzvləri təriqətdən ayrılmaq istəyənlərə atəş açmağa başladılar. Açılan atəşlərdən konqres üzvü Rayn, üç müxbir və ayrılmaq istəyən bir təriqət üzvü öldü. 11 nəfər də ağır yaralandı. Hadisədən bir neçə saat sonra təriqət başçısı üzvlərə sianid-potaş içib intihar etməyi əmr etdi. Zəhər birinci valideynləri tərəfindən körpələrə vuruldu. Daha sonra uşaqlarla birlikdə 900-dən çox adam özünü zəhərlədi.[37]

90-cı illərdə isə kütləvi halda ölümləri ilə diqqəti çəkən qrup Devid Koreş təriqəti oldu. 28 fevral 1993-cü ildə təhlükəsizlik əməkdaşları araşdırma aparmaq üçün təriqətin Texasın yaxınlığındakı fermasına girmək istədikdə təriqət üzvləri onları güllələbarana tutdu. Bundan sonra həmin ərazi 51 gün boyunca mühasirəyə alındı. Mühasirənin 51-ci günündə təhlükəsizlik əməkdaşlarından biri fermaya girməyə çalışarkən fermanı bir anda tüstü bürüdü. Təhlükəsizlik əməkdaşları Devid Koreşin fermanı yandırdığını və fermanın müxtəlif yerlərinə yerləşdirilən gizli tələlərin tikilini bir anda alov topuna çevirdiyini açıqladılar. Bunun nəticəsində təxminən 90 nəfər yanaraq öldü.

1997-ci ildə San-Dieqonun şimalında idman ayaqqabıları və qara futbolka geyinən təqribən 40 nəfərin qrup şəklində intihar etməsi azğın təriqətlər mövzusunu bir daha dünyanın gündəliyinə gətirdi. 26 və 72 yaşları arasındakı həmin 40 nəfər o dövrdə dünyanın yaxınlığından keçən Xeyla-Boppa kometasının onları təkamülün bir üst mərhələsinə keçirəcəyinə inanaraq intihar etmişdilər. Təriqətin internet səhifəsində bu inanclarından belə bəhs edilirdi:

“Təkamül pilləsində insanın üzərində yer alan ən yaşlı üzvümüz Xeyla-Boppanın illərdir ki, gözlədiyimiz işarət olduğunu bizə bildirdi... Bu dünyadakı 22 illik təlim prosesimiz ən sonda başa çatmaq üzrədir. Buradan məzun olaraq insanın təkamülü prosesində bir üst pilləyə çıxırıq. Bu dünyadan ayrılmaq üçün hazırlaşıb Tinin komandasına qatılacağımız üçün xoşbəxtik”. (Ti 1985-ci ildə xərçəngdən ölüb; qrupun lideri Bonni Lu Trusdeyli təmsil edirdi)[38]

Bunlar kitabı oxuyan bir çoxlarının özündən uzaq gördüyü nümunələr ola bilər. Bundan başqa, burada yalnız bir-iki nümunənin gözdən keçirilməsi də heç kimi aldatmamalıdır. Dünyanın bir çox ölkəsində azğın təriqət və təşkilatlar gəncləri öz təsirinə salır. Belə ki, bəzi insanların özlərini bu cərəyanlardan uzaq görməsi onların cəmiyyətlərə və fərdlərə verdiyi zərərin qarşısını almır. Tam əksinə, kitabın əvvəlindən bəri əhəmiyyətlə üzərində dayandığımız dəccaliyyət fitnəsinin nə qədər geniş yayıldığını və fərqli formalarda qarşımıza çıxdığını göstərir.

**Yapon təriqətinin metroya hücumu**

Sözügedən azğın təriqətlərin tək təhlükəli yönü təriqətə üzv olan şəxslərin canına və malına zərər vermələri deyil. Belə təriqətlər azğın düşüncələri və yaşayış tərzləri ilə ictimai nizamı da pozurlar. Bəzən isə birbaşa mülki əhalini hədəf alan hücumlar da təşkil edirlər. Yaxın keçmişdə baş verən bu hücumlardan biri yapon təriqəti “Aum Shinrikyo”nun Yaponiyada metroya sarin qazı atmağıdır. Bu hücum nəticəsində 5500 nəfər yaralanmış, 12 nəfər də ölmüşdü. Təriqət bu hücumdan başqa, 1994-cü ildə Tokio yaxınlığındakı Matsumotoda 7 nəfərin ölümü, 144 nəfərin isə yaralanması ilə nəticələnən bənzəri qaz hücumları da təşkil edib. Bununla yanaşı, təriqətin cinayət işləri arasında adam oğruluğu kimi hallar da var.

Təriqət lideri Asaharanın təlimlərinə görə, bir insan ancaq cinayət törətməklə ruhunu təmizləyə bilər. Dünya hakimiyyətinin təmin edilməsi isə ancaq tələbələrinə öyrətdiyi şiddətin tətbiq olunması ilə mümkündür. Normal insanların cinayət olaraq gördüyü hadisələr təriqət üzvlərinə görə bir növ gözəl əxlaq xüsusiyyətidir.

1994-cü ildə başlayan hücumların ilk hədəfi təriqət əleyhində cinayət işi açan və ədalət nazirliyinə məxsus evlərdə qalan hakimlər idi. Bu ilk sarin qzı hücumu 7 nəfərin ölümünə və 144 nəfərin yaralanmasına səbəb oldu. Bu zaman təriqət Asaharanın əmri ilə 70 ton tutumu olan sarin qazı istehsalat mərkəzi inşa etməyə başladı. Bununla bərabər, Asahara 1000 ədəd avtomat silah və bir milyon güllə düzəldilməsini əmr etmişdi. Təriqət muzdla çalışan rus elm adamlarının köməyi ilə uranın istifadə edildiyi bir növ nüvə silahı da istehsal etməyə çalışırdı. Asaharanın maraq dairəsində adam oğruluğu, başda vəkillər və hakimlər olmaqla, təriqət əleyhində olanların qətlə yetirilməsi də var idi.

Metroya təşkil olunan hücum isə daha geniş miqyasda əks-səda doğurdu. Səhər işə gedən metrodakı minlərlə günahsız adam hücumdan zərər çəkdi. 12 nəfərin ölümünə, 5000 nəfərin isə xəstəxanada müalicə almasına səbəb olan bu hücum həmin qruplaşmaların mülki xalq üçün hansı təhlükəni yaratdığını göstərməsi baxımından olduqca diqqəti cəlb edirdi.

Din əxlaqından kənar qəribə və azğın inanclar icad edən topluluqlar içərisində yuxarıdakı nümunələrdə də göründüyü kimi, hər cür əxlaqsızlıq normal qarşılanır. Narkotik istifadəsindən oğruluğa, adam qaçırmaqdan işgəncəyə qədər hər cür anormal davranışların hakim olduğu təşkilatların üzvləri ən son mərhələdə intihar edirlər.

Bunu unutmaq olmaz ki, Allaha iman etməyən, gözəl əxlaqı tanımayan və Allahdan qorxub çəkinməyən insanların belə vəhşiliklər törətməsi təəccüblü hal deyil. Çünki bu adamlar etdiklərinə görə hesab verəcəklərinə, əməllərinin qarşılığının axirətdə alacaqlarına inanmırlar. Yaxud da ölümdən sonrakı həyat mövzusunda özlərinə sərf edən və tamamilə yanlış ssenarilərə inanırlar. Halbuki yeganə doğru yol Allahın qullarına göstərdiyi hidayət yoludur. Allah Quranda insanlara düşünüb dərk etməyi əmr edir. Buna görə də iman edənlər vicdanlı və ağıllı davranaraq hər hansı bir düşüncənin arxasınca qətiyyən getməzlər. Möminlər daim vicdanla hərəkət etdiklərinə görə bu onları hər cür əxlaqsızlıq və azğınlıqdan qoruyur. İman edənlər Allahın insanlara bildirdiyi ən doğru yolda olanlardır. Bu təriqət və topluluqların isə doğru yoldan azdıqları açıq-aydındır.

Şübhəsiz ki, burada nümunələrini verdiyimiz şiddət və terror əməlləri dünya miqyasındakı terrorun məhdud örnəkləridir. Uzun illərdən bəri bir çox ölkədə terror təşkilatları müxtəlif ideoloji əsaslarla cəmiyyətlərə qorxu və dəhşət saçır, günahsız insanları qətlə yetirirlər. Bunların arasında İngiltərə üçün problemə çevrilən İRA, İspaniyanın Bask bölgəsində fəaliyyət göstərən ETA, illər boyu xaricdə vəzifələrini yerinə yetirən diplomatlarımızı hədəf almış ASALA, ölkəmizin minlərlə vətəndaşını şəhid edən PKK və s. kimi təşkilatların adını çəkmək olar. Hər biri fərqli ideologiyaya malik olmaqla yanaşı, adlarını çəkdiyimiz və ya çəkmədiyimiz bütün terrorçu qruplaşmalar və şiddət tərəfdarı olan insanlar, əslində, ortaq nöqtədə birləşiblər. Bu ortaq nöqtə dinsizlikdir. Hansı ideologiyaya və ya dünyagörüşünə sahib olmasından asılı olmayaraq, bir insanı anarxiya və şiddətə aparan səbəb özünü pis əməllərdən çəkindirən vicdan və inanca sahib olmamasıdır.

## NƏTİCƏ

Kitabın əvvəlindən bəri üzərində dayandığımız kimi, insanları şiddət və vəhşiliyə yönləndirən səbəb vicdanın səsini dinləməmələri, həmçinin Allah qarşısında məsuliyyət daşıdığını və axirətdə bütün əməllərin hesabını verəcəyini unutmalarıdır. Buna görə də insanları şiddət və terrordan uzaqlaşdırmağın ən təsirli yolu onları bu yola aparan həmin cəhaləti ortadan qaldırmaqdır. Terrora qarşı siyasi, iqtisadi və hüquqi yöndən tədbirlərin alınması vacibdir, lakin bunların heç biri terrorizmlə mübarizə aparmaq üçün kafi deyil. Əsas olaraq terrora zəmin yaradan fikri ortadan qaldırmaq lazımdır. Bunun üçün qəzəb və nifrəti təlqin edən bütün

ideologiyalara qarşı fikri mübarizə aparılmalı və bunların yerinə dinin insanlara öyrətdiyi əxlaqi dəyərlər səmimi şəkildə müdafiə edilməlidir.

Kitab boyu araşdırdığımız kimi, həmin ideologiyaların əsas dayağı darvinizmdir. Elmi şəkildə tamamilə çökən, eləcə də ağıl və məntiqə zidd olduğu sübut edilən bu nəzəriyyənin hələ də ayaqda tutulmasının tək səbəbi nəzəriyyəyə ideoloji bağlılıqdır. Beləliklə, bu nəzəriyyə ortadan qalxarsa, terrorun zəmini də ortadan qalxar. Buna görə də darvinizmə qarşı aparılan fikri mübarizə insanlığa hüzur, sülh və güvənlik gətirmək üçün görülən işlərin əsasını təşkil edir.

Bu fikri mübarizənin bir mərhələsi də həmin ideologiyaların əsil üzünün ifşa edilməsi və yanlış yönlərinin gözlər önünə sərilməsidir. Digər əhəmiyyətli mərhələ isə insanlara həqiqi hüzur və sülhü gətirən din əxlaqının təbliğ edilməsidir. Dövrümüzdə insanların böyük qismi həqiqi dini bilmədikləri üçün dinsizliyin təsirinə düşürlər. Bu səbəbdən haqq dinin təbliğ olunması, Allahın insanlara əmr etdiyi gözəl əxlaqın bütün dünyaya tanıdılması bu əxlaqı bilib yaşayanların üzərinə düşür.

Bu gün dünyaya dəccal sistemi, yəni anarxiya, qarışıqlıq və xaos hakimdir. Allah tarix boyu günahkar və təxribatçı toplulugları həlak etmişdir, dəccal sisteminin də bir sonu var. Zalımlıq və amansızlıq üzərinə qurulan, şiddət və terrora əl atan, eləcə də insanlara zülm edən hər cür topluluğun və cərəyanın aqibəti eynidir. Hər terrorçu və anarxist sonda həlak olur. Anarxiya və terroru dəstəkləyən hər millət yox olur. Zülm edən ölümsüz deyil. Quranda bir zalım topluluğun aqibəti barədə belə deyilir:

**Artıq o zalım tayfanın kökü kəsildi. Həmd olsun aləmlərin Rəbbi Allaha! (Ənam surəsi, 45)**

Şübhəsiz, dəccalın uğrayacağı son bundan fərqli olmayacaq. Buna görə də şiddət və terrora əl atanlar bənzəri aqibətə düçar olmaqdan qurtulmaq üçün mütləq bu yoldan dönməlidirlər. Allah zülm və günahdan sonra yaxşılıq edənlərin xətalarını bağışlayacağını bildirir. Allah insanlara din əxlaqını bilmədən və cəhalət üzündən törətdiklərinə görə cəza verməz. Allah çox bağışlayandır və rəhmət sahibidir. Buna görə də anarxiya çıxaranlar və insanlara zərər verənlər düşünməlidirlər ki, bu yoldan dönmək çox gec deyil. Anarxiya və terrordan dönmək heç bir zaman gec deyil. Həmin insanlar səmimi şəkildə Allaha tövbə edib pis əməllərindən tamamilə əl çəkməlidirlər. Allah cahillikləri ucbatından pislik edib, sonra bağışlanma diləyənləri əfv edəcəyini bir ayədə belə buyurur:

**Ayələrimizə iman gətirənlər sənin yanına gəldikdə de: “Sizə salam olsun! Rəbbiniz Özünə rəhmli olmağı əzəldən yazmışdır; sizlərdən hər kəs avamlığı üzündən pis iş görsə, sonra tövbə edib (əməllərini) islah etsə, (Allah onu bağışlayar). Həqiqətən, O, bağışlayandır, rəhmlidir”. (Ənam surəsi, 54)**

## ƏLAVƏ BÖLMƏ: TƏKAMÜL NƏZƏRİYYƏSİNİN SÜQUTU

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdənkənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi, həmçinin təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir.

Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, qərəzli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya

kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər əsərlərimizdə də bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq bu mövzudan burada da bəhs etməkdə fayda var.

**Darvini məhv edən çətinliklər**

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə əsaslı şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı. Özünün də qəbul etdiyi kimi, sadəcə fikir irəli sürmək idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşılaşdığı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir təkzib etdi.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

***1) Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.***

***2) Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.***

***3) Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.***

Bu bölmədə bu üç başlığı əsas prinsipləri ilə təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl ibtidai dünyada təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbii qanunlar çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "təsadüfi törəmə" (spontaneous generation) adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərinə əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görünməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə basdırılmışdır". (*Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh.2*)

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

### XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi məsələsi təkamül nəzəriyyəsini tamamilə əhatə edən ən qaranlıq məqamdır". (*Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh.196*)

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin Yer kürəsi şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. (*"New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, 63-cü cild, oktyabr 1982, səh. 1328-1330*)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada (Jeffrey Bada) təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". (*Jeffrey Bada, Earth, fevral 1998, səh. 40*)

### Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların belə mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən

qabaqcıl laboratoriyalarında belə cansız maddələri birləşdirərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Hüceyrənin ən əsas quruluş vahidi olan zülalların təsadüfən sintezlənmə ehtimalı 500 amin turşusundan ibarət orta ölçülü zülal üçün $10^{950}$ 1-dir. Ancaq riyaziyyatda 1050-də 1-dən kiçik ehtimallar praktiki cəhətdən "qeyri-mümkün" hesab edilir. Hüceyrənin nüvəsində yerləşən və genetik informasiyanı daşıyan DNT molekulu böyük informasiya bankıdır. İnsan DNT-sinin ehtiva etdiyi informasiya kağıza köçürülsə, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana əmələ gələr. Burada çox maraqlı dilemma da var: DNT ancaq bəzi xüsusiləşmiş zülalların (fermentlərin) köməyi ilə ikiləşir. Ancaq bu fermentlərin sintezi də ancaq DNT-dəki informasiya əsasında baş verir. Bir-birlərindən asılı olduqlarına görə ikiləşmənin (replikasiya) baş verməsi üçün hər ikisi eyni anda mövcud olmalıdırlar. Bu isə həyatın öz-özünə əmələ gəlməsi ssenarisini çıxılmaz vəziyyətdə qoyur. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orgel (Leslie Orgel) "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin əsla mümkün olmadığı nəticəsinə gəlir". (*Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78*)

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

### Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini təkzib edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü hər iki anlayışının, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seçmə mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi: təbii seçmə yolu ilə..."

Təbii seçmə təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalması fikrinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq.

Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz. Ona görə təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil.

Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: "Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz", – demək məcburiyyətində qalmışdı. (*Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 189*)

### Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəsilə

ötürürlər, nəsildən-nəsilə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəsilə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (*Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184*)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə "neodarvinizmi" ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozuntuları əlavə etdi.

Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan (B. G. Ranganathan) bunu belə açıqlayır:

*"Mutasiyalar kiçik, təsadufi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xususiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yuksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadufi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadufi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha da yaxşılaşdırmır, onu məhv edir. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, təkbaşına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir. Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişdirlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-

hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar. Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Həqiqətən də, bu cür canlılar keçmişdə yaşayıblarsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil qeydlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

*"Əgər nəzəriyyəm doğrudursa, novləri bir-birilə əlaqələndirən saysız-hesabsız ara-keçid novləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

*"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyiblərsə,* ***nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?*** *Geologiya yaxşı dərəcələndirilmiş bir prosos üzə çıxarmır və bəlkə də, bu mənim nəzəriyyəmə qarşı irəli sürüləcək ən böyük etiraz olacaq."( Əlavə haşiyə: Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

### Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir.

Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar, təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer (Derek V. Ager) təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

*"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)*

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə bu, canlı növlərinin yaradıldığını göstərən çox güclü dəlildir.

Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

*"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983, səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

Avstralopiteklər
Homo habilis
Homo erektus
Homo sapiens

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən avstralopitek ("australopithecus") adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan olan iki məşhur anatomun avstralopitek nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. (*Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 75-94; Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389*)

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo ardıcıllığındakı canlılar avstralopiteklərdən daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "Homo sapiensə uzanan zəncir halqası, əslində, itib", – deyərək bunu qəbul edir. (*J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992*)

Təkamülçülər "avstralopitek > homo habilis > homo erektus > homo sapiens" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri avstralopitek, homo habilis və homo erektusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. (*Alan Walker, Science, cild 207, 1980, səh. 1103; A. J. Kelso, Physical Antropology, 1-ci nəşr, New York: J. B. Lipincott Co., 1970, səh. 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272*)

Habelə, homo erektus sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, homo sapiens neanderthalensis və homo sapiens sapiens (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşdurlar. (Time, noyabr 1996)

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli nümayiş etdirmirlər."(*S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30*)

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir.

Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə avstralopitek fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman, təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fovqundə olan qavramaya və ya insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, (öz nəzəriyyəsinə) sadiq birisi üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, (təkamülün) coşqun tərəfdarın bəzən müxtəlif ziddiyyətli şeylərə eyni anda inanması belə mümkündür. (*Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19*)

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı açıq misalla izah edək.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Bu ağlasığmaz iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni, sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz.

İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı altında nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül

nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Yuxarıdakı misalda göstərildiyi kimi, təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünsək, bu həqiqət aşkar görünür.

**Göz və qulaqdakı texnologiya**

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir. Gözlə bağlı mövzuya keçməmişdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nahiyəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyinə heç bir işıq keçmir. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik bu o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir.

Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə ikiölçülü görüntü göstərir, lakin siz üçölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üçölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üçölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üçölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq ən yüksək texnologiya ilə bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli

musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa, təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmamışdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi, cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

### Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gəlməmisiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

### Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əvəzedilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

*“Bizim materializmə inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna gorə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”. (Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 yanvar 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu

səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdənkənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

### Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəni, təhsilli insanlardır. Bu səbəbdən təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", – deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətamizi vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək

qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir.

Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa, insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub duzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elm adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

*"Mən özüm təkamül nəzəriyyəsinin xususilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". (Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh.43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar, təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi təsvir ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**Xeyr, Biz haqqı batilin üstünə atarıq və o da onun işini bitirər. Bir anda (batilin) yox olub getdiyini görərsiniz. (Allaha) aid etdiyiniz sifətlərə görə vay halınıza! (Ənbiya surəsi, 18)**